Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 252 (7979) CÜMƏ AXŞAMI, 8 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiymәti 40 qәpik

## Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının uğurla inkişaf etdiyi bildirildi, hazırda ölkəmizlə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların aparıldığı vurğulandı və bu sazişin gələcək əməkdaşlığın hərtərəfli inkişafı üçün əlverişli imkan yaradacağı qeyd olundu.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətrafında, Azərbaycanla Avropa İttifaqı arasında turizm, nəqliyyat, təhsil və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## 7 hektar ərazi, 8 min kvadratmetr ticarət sahəsi, 335 nəfər işçi...

### Azərbaycanın ən böyük hipermarket şəbəkəsi olan "Bravo"da satılan ərzaq məhsullarının 90 faizindən çoxu yerli istehsaldır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 7-də "Bravo" marketlər şəbəkəsinin metronun "Koroğlu" stansiyasının yaxınlığında yerləşən yeni hipermarketinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, hipermarketdə yaradılan şərait barədə dövlət başçısına və birinci xanıma məlumat verildi. "Bravo" Azərbaycanın ən böyük hipermarket şəbəkəsi hesab olunur.

Bildirildi ki, inşasına ötən ilin mayında başlanılan bu ticarət obyektinin ümumi sahəsi 7 hektardan, ticarət sahəsi isə 8 min kvadratmetrdən artıqdır. Hipermarketin qapalı və açıq avtodayanacağının sahəsi 11 min kvadratmetrdən çoxdur.

Ardı 2-ci səh.




**Prezidentlik fəaliyyətinin bütün dövründə cəbhə bölgəsinin sakinlərinə hər zaman xüsusi diqqət və isti münasibət göstərən İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın noyabrın 5-də Ağdam rayonuna növbəti səfəri bir neçə məqamlarla əlamətdar oldu.**

Bu səfərlə Qarabağa yeni nəfəs gətirən İlham Əliyev böyük qayıdışa inamı daha da möhkəmləndirdi. Ağdamlılar isə dövlət başçısına möhtəşəm dəstəyini, birmənalı bağlılığını, Mehriban xanım Əliyevaya isə güclü etimadını yenə də nümayiş etdirdi.

Səfər bir daha ağdamlıların həyatında, xatirələrində silinməz izlər qoydu. Çünki İlham Əliyevin illərdir cəbhəboyu ərazidə çəkinmədən düşmənlə üz-üzə dayanan rayona ardıcıl səfərləri bütün ağdamlılar tərəfindən onlara böyük himayədarlığın, diqqət və qayğının bariz təcəssümü kimi dəyərləndirilir.

### Ağdam yenə də düşmənə göz dağıdır

Qarabağ müharibəsinin ilk günlərindən Ağdam hadisələrin episentri olub və ən böyük ağırlıqlar rayon əhalisinin üzərinə düşüb. Müharibənin bütün ağrılarını çiyinlərində daşıyan, böyük fədakarlıq, rəşadət göstərən Ağdam sakinləri düşmənə ciddi müqavimət göstərib. Demək olar ki, əli silah tutan bütün ağdamlılar doğma torpağın müdafiəsinə qalxıb və düşmənə qarşı savaşda 6 mindən çox şəhid verib. Şəhidlərindən 16 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib və yüzlərlə abidələrimiz, məscidlərimiz, əcdadlarımızın qəbirləri erməni faşistləri tərəfindən dağıdılıb. İndi Ağdamı "ruhlar şəhəri" adlandırırlar.








Lakin bu itkilər, ağrı-acılar ağdamlıları sarsıtmayıb. Əksinə, əhalinin düşmənə qarşı qəzəbini daha da artırıb. İşğala məruz qalsa da, minlərlə şəhid versə də, yenə də ayaqdadır ağdamlılar. Çünki onların İlham Əliyev və Mehriban xanım Əliyeva kimi qayğıkeşləri, etimad ünvanları var. Bu dəstək onları daha da qürurlandırır. Bir sözlə, 25 ildir ki, cəbhəboyu zonada mətin dayanan Ağdam düşmənə göz dağıdır.

25 il öncə, 1993-cü il iyulun 23-də rayon işğal olunarkən 1154 kvadratkilometr ərazisinin 76,4 faizi Ermənistanın nəzarətinə keçib. İndi, cəmi 23,6 faiz ərazi Azərbaycanın nəzarətindədir. 198 600 min nəfər əhalidən 93 min nəfəri hazırda rayonun ərazisində yaşayır. Ağdamın qalan əhalisi respublikanın 62 şəhər və rayonunda müvəqqəti məskunlaşıb.

### İki ildə üçüncü səfər

Ağdamın inkişafına böyük diqqət göstərilir. Rayonun işğal altında olmayan 44 yaşayış məntəqəsində müxtəlif dövlət proqramları çərçivəsində geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri aparılıb, Olimpiya İdman Kompleksi, Ağdam Rayon Mərkəzi Xəstəxanası və Uşaq Xəstəxanası, Doğum Evi, Bayraq Meydanı və Bayraq Muzeyi, Avtovağzal Kompleksi tikilib, Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir olunub, xalçaçılıq müəssisəsi yaradılıb, kəndlərarası avtomobil yolları yenidən qurulub, 39 ümumtəhsil məktəbi istifadəyə verilib.

Ardı 4-cü səh.



## Aqrar inkişafın yeni hədəfləri

**Payız məhsul yığılan barlı-bərəkətli fəsildir. Fermerlər yetişdirdikləri məhsulu yığıb qurtarmaq üzrədirlər. Demək olar ki, becərilən məhsulun çox hissəsi yığılaraq bir qismi satışa göndərilib, qalan hissəsi isə anbarlarda saxlanılır.**

Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında açıqlanan rəqəmlərdən aydın görünür ki, kəndlinin builki qazancı yaxşı olub. Təkcə onu demək kifayətdir ki, iqtisadiyyatda ən yüksək artım - 4,3 faiz kənd təsərrüfatına aiddir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin sözügedən iclasında aqrar sektorda əldə edilən yüksək nailiyyətləri qeyd edərək demişdir: "Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyi nəzərə alınaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik".

Ardı 7-ci səh.




## Əlimizdə müqəddəs bayraq, qəlbimizdə yurd həsrəti, dilimizdə vətən nəğməsi ilə...

**Göydən nur çilənir, əllərimizdə dalğalanan üçrəngli, müqəddəs bayrağımızın üzərinə... Qəlbimizdə yurd həsrəti, dilimizdə vətən nəğməsi, "Bayraq yürüşü"nə çıxmışıq. Yolumuz Vətənə sarıdır, üzü Şuşaya, Ağdama, Xocalıya, Qarabağa doğru gedirik...**

Minlərlə insanın iştirak etdiyi əzəmətli yürüş 9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilədir. Təsadüfi deyil ki, bu günü düşmənlə həmsərhəd olan Horadizdə qeyd edirik. Qoy dalğalanan bayraqlarımızın kölgəsindən, göylərə yüksələn qəhrəmanlıq nəğməmizdən qələbə gününün o qədər də uzaq olmadığını hər kəs - dost da, düşmən də bir daha anlasın...

### Milli atributlarımızın təbliği

Təhsil və Müdafiə nazirliklərinin birgə təşkilatçılığı ilə Horadizdə "Bayraq yürüşü"nün keçirilməsində əsas məqsəd milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hissinin və milli-mənəvi dəyərlərin aşılanması idi.

İki mindən artıq insanın iştirak etdiyi yürüş Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzində ulu öndərin abidəsinin ziyarəti ilə başladı.

*...Qorumasaq Vətəni,*
*Qalarıq biz Vətənsiz.*
*Yuvasız bir quş kimi,*
*Ölərik biz Vətənsiz.*

Bu misraları balaca əllərinə bayrağı sıxaraq hamıdan öndə addımlamağa hazır olan 5 yaşlı Əli söyləyir. Düşmənlə həmsərhəd bölgədə yaşayan Əli böyüyəndə hərbçi olmağı arzulayır. Bu gün də anasından xahiş edib ki, ona əsgər paltarı geyindirsin.

Hər kəs hazırdır. Beləliklə, 200 metrdən yuxarı nisbi yüksəklikdə - dağın zirvəsində yaradılmış Bayraq meydanına doğru yürüşə start verilir.

### Vətən məhəbbəti sevgilərin ən alisi, ən müqəddəsidir

Yağış davam edir. Lakin minlərlə insan sanki qələbəyə doğru can ataraq böyük qürurla irəliyə addımlayır. Heyrətamiz mənzərə yaranır. Bir daha əmin olursan ki, havanın yağışlı, çovğun olması qəlbində vətən sevgisi olan azərbaycanlını sarsıtmır, əksinə daha cəsarətli, mübariz olmağa sövq edir.

Ardı 4-cü səh.

## "Made in Azerbaijan" Çində nüfuzlu brendə çevrilib

***Şahin MUSTAFAYEV:*** "Çin şirkətləri artıq pambıqçılığın və ipəkçiliyin maddi-texniki bazasının inkişafında Azərbaycanla uğurlu əməkdaşlıq edir"



**Şanxayda 170 ölkədən 3 mindən çox şirkətin təmsil olunduğu Birinci Çin Beynəlxalq İdxal Sərgisi açılıb.**

Qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən 30-dan çox Azərbaycan şirkətinin 180 çeşiddən artıq məhsulları qida və kənd təsərrüfatı məhsulları, həmçinin xidmətlər paviyonlarında təqdim edilir.

Səfərin ilk günü iqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin başçılıq etdiyi nümayəndə heyəti açılış mərasimində iştirak edib.

Sərginin açılış mərasimində Çin Xalq Respublikasının sədri Si Cinpin çıxış edib. Bildirilib ki, bu, Çində idxal məhsullarının ilk sərgisidir. 100-dən çox yeni məhsul və texnologiyalar ilk dəfə olaraq məhz bu sərgidə nümayiş olunur.

İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə ölkəmizin üzüm və meyvə şərabları, digər spirtli içkilər, çay, meyvə şirələri, mürəbbələr və digər konserv məhsulları, qənnadı məmulatları, fındıq, quru meyvələr və s. qida məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunur.

Ardı 3-cü səh.

# 7 hektar ərazi, 8 min kvadratmetr ticarət sahəsi, 335 nəfər işçi...

## Azərbaycanın ən böyük hipermarket şəbəkəsi olan "Bravo"da satılan ərzaq məhsullarının 90 faizindən çoxu yerli istehsaldır

*Əvvəli 1-ci səh.*





Bu dayanacaqlarda eyni vaxtda 800-ə yaxın avtomobil saxlanıla bilər. Zövq oxşayan müasir tərtibatlı hipermarketdə bazarlıq üçün hərtərəfli imkanlar var. Müştərilərə ən geniş çeşiddə müxtəlif növ məhsullar təqdim edilir. Yeni hipermarketdə alıcılara, həmçinin "Bravo" özəl ticarət markasına məxsus ərzaqlar, müxtəlif çeşiddə keyfiyyətli qeyri-qida məhsulları da təklif olunur.

Məlumat verildi ki, "Bravo" şəbəkəsinə məxsus market və hipermarketlərdəki ərzaq məhsullarının 90 faizindən çoxu yerli məhsullardır. Dövlət başçısı bununla bağlı məmnunluğunu bildirdi və təbriklərini çatdırdı. Bu fakt ölkə iqtisadiyyatının digər sahələri ilə yanaşı, yerli ərzaq sənayesi sektorunun da sürətlə inkişaf etdiyini bir daha göstərir.

Burada "Bravo kafe", uşaqlar üçün xüsusi zona, "Kapital Bank", "McDonalds", "Buta aptek" də fəaliyyət göstərəcək. Yeni iş yerlərinin açılması baxımından da "Bravo" hipermarketi əhəmiyyəti ilə seçilir. Belə ki, burada 335 nəfər işlə təmin olunub. Onların orta aylıq əməkhaqqı 540 manata yaxındır. Yeni istifadəyə verilən "Bravo" hipermarketi də şəbəkəyə aid digər yerlərdə olduğu kimi, peşəkar komandası ilə seçilir. Bir sözlə, mükəmməl xidmət üçün təlimli və təcrübəli işçi heyətin fəaliyyət göstərməsi burada müştərilərə nümunəvi xidmət etməyə imkan yaradacaq.

Ümumilikdə, indiyədək Bakı və Gəncə şəhərlərində "Bravo" şəbəkəsinə məxsus 27 mağaza, o cümlədən 3 hipermarket alıcıların ixtiyarına verilib. "Bravo" şəbəkəsinin əsas məqsədlərindən biri beynəlxalq standartlar səviyyəsində fəaliyyət göstərməklə yanaşı, yüksək keyfiyyətli innovativ məhsullar təklif etməkdir. Şəbəkənin bütün mağazaları müasir dizaynı ilə seçilir. "Bravo" şəbəkəsinə məxsus market və hipermarketlər daim yenilənən zəngin çeşid, qida təhlükəsizliyinə və gigiyenaya zəmanəti ilə də fərqlənir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sürətli iqtisadi inkişafa nail olunub və bu proses uğurla davam edir. Sürətli inkişaf Azərbaycanın hər yerində, bütün sahələrdə, o cümlədən ən müasir ticarət infrastrukturunun yaradılmasında da özünü aydın göstərir. Təsadüfi deyil ki, ölkə iqtisadiyyatında qazanılan uğurlarda ticarət sahəsinin də ilbəil inkişafı və genişlənməsi vacib rol oynayır. Son illərdə ölkəmizdə ən müasir dünya standartlarına cavab verən ticarət, alış-veriş mərkəzləri istifadəyə verilib. Bu baxımdan "Bravo" hipermarketinin öz yeri var. Bu cür ticarət mərkəzlərinin yaradılması vətəndaşların, o cümlədən ölkəmizə gələn və sayı durmadan artan turistlərin rahatlığını təmin edir. Bununla yanaşı, bu müasir ticarət infrastrukturunun istifadəyə verilməsi paytaxtımızın iqtisadi potensialını nümayiş etdirərək, ümumilikdə, Azərbaycanın iqtisadi inkişafına xidmət edir. Böyük zövqlə inşa olunan bu hipermarket, eyni zamanda, yerləşdiyi ərazinin gözəlliyini artırmaqla, son dövrlərdə Bakının dünyanın ən müasir şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən işlərin davamlı olduğunu nümayiş etdirir. Bu layihənin icrası həm də dövlət-özəl biznes tərəfdaşlığının əyani nümunəsi olmaqla, ölkəmizdə iş adamları üçün yaradılan şəraiti və əlverişli investisiya mühitini, həmçinin son illərdə yeni iş yerlərinin açılması sahəsində həyata keçirilən tədbirlərin miqyasını göstərir.

Sonda xatirə şəkli çəkdirildi.





## İsmayıllı rayonunun Basqal qəsəbəsində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İsmayıllı rayonunun Basqal qəsəbəsində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

## "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq, "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 867-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4, I kitab, maddə 155; 2008, № 6, maddə 462; 2014, № 8, maddə 955; 2016, № 11, maddə 1778; 2017, № 7, maddə 1265) 9.1.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"9.1.1. bələdiyyə mülkiyyətində olan daşınmaz əmlak üzərində reklam daşıyıcısının yerləşdirilməsi ilə bağlı ödəniş;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1261-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1261-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

## Birinci vitse-prezident Mehriban Əliyevanın uşaqlara daha bir töhfəsi





Noyabrın 7-də Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən "Cırtdan" Respublika Uşaq-Gənclər İstirahət və Sağlamlıq Mərkəzinin yenidənqurmadan sonra açılışı olub.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak ediblər.

Mərkəzin binası 1986-cı ildə inşa edilib və uşaq düşərgəsi olub. Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə burada yenidənqurma işləri aparılıb. Bundan sonra bu məkan "Cırtdan" Respublika Uşaq-Gənclər İstirahət və Sağlamlıq Mərkəzi kimi fəaliyyət göstərəcək.

Birinci vitse-prezident Mehriban Əliyeva istirahət və sağlamlıq mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Mərkəzdə yaradılan şəraitlə tanışlıq zamanı Birinci vitse-prezident Mehriban Əliyevaya burada aparılmış yenidənqurma, təmir-bərpa və abadlıq işləri barədə ətraflı məlumat verildi.

Qeyd edildi ki, uşaq və yeniyetmələr üçün maraqlı dizaynla qurulan düşərgənin binasında yenidənqurma işləri nəticəsində uşaqların daha rahat qalmaları, onların maraqlı, faydalı və əyləncəli vaxt keçirmələri üçün hər cür şərait yaradılıb. Bu məkan uşaqların sosiallaşması, asudə vaxtlarının təşkili, düşüncə tərzinin, məntiqinin inkişaf etdirilməsi üçün mühüm funksiya daşıyacaq. Mərkəzin həyətində əsaslı abadlaşdırma işləri aparılıb, yaşayış kompleksi və yeməkxana tamamilə yenilənib, yeni akvapark, parkur, yoqa və idman meydançaları, qaçış zolağı, kitabxana, akt zalı, yay səhnəsi, əyləncə zonası və s. inşa edilib. Təhlükəsizlik məqsədilə videomüşahidə sistemi qurulub. Uşaqlar üçün daha bir yenilik isə burada "Radio Cırtdan"ın fəaliyyət göstərməsi olacaq.

Sovet dövründə düşərgə kimi fəaliyyət göstərən bu məkanda çoxlu sayda uşaq və yeniyetmə hər yay öz istirahətini maraqlı keçirirdi. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da düşərgə fəaliyyətini davam etdirib. Hər il 1500-ə yaxın uşaq və gənc bu mərkəzdə istirahət edir. Mərkəzdə aztəminatlı ailələrə və sağlamlıq imkanları məhdud olan yeniyetmələrə xüsusi diqqət göstərilir. Düşərgənin dəniz yaxınlığında yerləşməsi isə uşaqların yay aylarında istirahətlərini çimərlikdə keçirməsinə də imkan yaradır.





# 2019-cu ilin dövlət büdcəsi inkişafın davamlılığını təmin edəcək

Dünən Milli Məclisin komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi davam etdirildi. Bu dəfə müzakirələrdə İnsan hüquqları, Regional məsələlər, Hüquq siyasəti və dövlət quruculuğu, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr və Gənclər və idman komitələrinin üzvləri iştirak edirdilər.

### Gələn il ümumi daxili məhsulda 3,6 faiz artım proqnozlaşdırılır

İclası aparan Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova bildirdi ki, artıq 3-cü gündür gələn ilin dövlət büdcəsinin müzakirəsi davam edir. Ötən iki iclasda hökumət nümayəndələri həm büdcənin bütün parametrlərini, həm ölkədəki real vəziyyəti, həm də gələcək inkişaf üçün proqnoz göstəricilərinin ətrafında işləyib hazırladıqları büdcə sənədini təqdim etdilər. "Hesab edirəm ki, ötən günlərdə kifayət qədər faydalı və səmərəli müzakirələr aparıldı. Ölkədə 2019-cu ildə hərbi-siyasi, sosial-iqtisadi, humanitar-mədəni sahələrdə görüləcək işlər, investisiya proqramları, "insan kapitalı"nın inkişafına yönəlmiş layihələr barədə geniş fikir mübadiləsi getdi" deyən Bahar Muradova İnsan hüquqları, Regional məsələlər, Hüquq siyasəti və dövlət quruculuğu, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr və Gənclər və idman komitələrinin birgə iclasında da səmərəli müzakirələrin aparılacağını dedi.

Maliyyə naziri Samir Şərifov gələn ilin dövlət büdcəsinin əsas parametrləri barədə məlumat verdi. Bildirdi ki, gələn ilin dövlət büdcəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun hazırlanıb. Büdcə tərtib olunarkən respublikamızın strateji inkişaf prioritetləri, ortamüddətli büdcə və maliyyə siyasəti, sosial-iqtisadi inkişaf göstəriciləri və makroiqtisadi proqnozların təhlili nəzərə alınıb. Eyni zamanda xalqın rifahının daha da yaxşılaşdırılması və digər dövlət əhəmiyyətli məsələlər üzrə qəbul edilmiş proqramların maliyyə təminatı, İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan 2019-cu və sonrakı 3 il üzrə ölkəmizin makroiqtisadi proqnoz göstəriciləri əsas götürülüb. 2019-cu ildə ümumi daxili məhsulda 3,6 faiz, qeyri-neft sektorunda isə 3,9 faiz artım proqnozlaşdırılır. Dövlət büdcəsinin və Dövlət Neft Fondunun gəlirlərinin hesablanmasında 1 barel xam neftin satış qiyməti 60 ABŞ dolları səviyyəsində qəbul edilib. Büdcə layihəsi təkcə ölkəmizdəki iqtisadi amilləri deyil, beynəlxalq səviyyədə baş verən geosiyasi prosesləri və iqtisadi dəyişiklikləri nəzərə almaqla tərtib olunub.

Gələn il dövlət büdcəsinin gəlirləri 22 milyard 917,5 milyon manat proqnozlaşdırılır. Bu da ÜDM-in 28 faizi həcmindədir. Qeyd edək ki, gəlirlərin 59,8 faizi və ya 13 milyard 700,3 milyon manatı neft sektorunun, 40,2 faizi və ya 9 milyard 217,2 milyon manatı qeyri-neft sektorunun payına düşür. 2018-ci ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri 354,3 milyon manat və ya 2,7 faiz, qeyri-neft sektorunun gəlirləri isə 414,2 milyon manat, yəni 4,7 faiz çoxdur. Neft sektoru üzrə büdcə gəlirlərinin 11 milyard 364,3 manatını Dövlət Neft Fondundan transfertlər, 2 milyard 336 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edəcək.

Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin 4 milyard 980 milyon manatı vergi orqanlarının xətti ilə daxilolmalar, 3 milyard 451,6 milyon manatı Dövlət Gömrük Komitəsindən daxilolmalar, 785,6 milyon manatı isə digər daxilolmalar üzrə formalaşacaq.

### Bütün sahələr üzrə xərclər artırılır

2019-cu il dövlət büdcəsinin xərcləri 24 milyard 780,1 milyon manat nəzərdə tutulur. Bu da ÜDM-in 30,2 faizini təşkil edir. Gələn il cari xərclərə dövlət büdcəsi xərclərinin 50,7 faizi həcmində və ya 12 milyard 554,2 milyon manat, əsaslı xərclərə isə 39,9 faizi həcmində və ya 9 milyard 891,1 milyon manat, dövlət borcuna xidmətlərlə bağlı xərclərə 9,4 faizi həcmində və ya 2334,8 milyon manat vəsait yönəldiləcək.

2019-cu ildə dövlət büdcəsinin xərclərində proqram və məqsədli tədbirlər üçün 10 milyard 314,4 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2018-ci illə müqayisədə 2076,9 milyon manat və ya 25,2 faiz çoxdur. Bu xərclər dövlət büdcəsinin xərclərinin 41,6 faizini təşkil edəcək ki, bu da cari ilə nisbətən 14,3 faiz çoxdur.

Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də dövlət büdcəsinin sosialyönümlülüyünün təmin edilməsi, əhalinin rifah halının daha da yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi, bir çox mühüm sosial proqramların reallaşdırılması istiqamətində dövlət büdcəsində müvafiq məbləğlərdə vəsait nəzərdə tutulur. Belə ki, 2019-cu il dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərə ümumilikdə 8 milyard 265,8 milyon manat vəsait yönəldiləcək. Bu, 2018-ci illə müqayisədə 744,5 milyon manat və ya 9,9 faiz çoxdur. Növbəti ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 33,4 faiz təşkil edəcək.

Müdafiə və təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri üçün 2019-cu il dövlət büdcəsi xərclərinin 18,5 faizi həcmində və ya 4 milyard 589,6 milyon manat vəsait nəzərdə tutulur. Bu vəsaitin 3 milyard 37,6 milyon manatı və ya 66,2 faizi (2018-ci ilə nisbətən 132,4 milyon manat və ya 4,6 faiz çox) müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə, 1 milyard 552 milyon manatı isə (2018-ci ilə nisbətən 167,8 milyon manat və ya 12,1 faiz çox) məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanlarının saxlanılması xərclərinə yönəldilib.

Növbəti ildə müdafiə və təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərclərində kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular nəzərə alınmaqla) ödənilən pul kompensasiyası, yeni sərhəd-keçid məntəqələrinin tikintisi, avadanlıq və qurğuların, nəqliyyat vasitələrinin alınması üçün müvafiq məbləğdə əlavə vəsait nəzərdə tutulur.

Gələn il icmal büdcənin gəlirləri 29 milyard 724,6 milyon manat və ya cari ilə nisbətən 1 milyard 599,9 milyon manat çox, xərcləri isə 27 milyard 372,3 milyon manat nəzərdə tutulur. Dövlət Neft Fondunun gəlirləri 15 milyard 579,2 milyon, xərcləri 11 milyard 364,3 milyon manat, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirləri və xərcləri bərabər olaraq 3 milyard 928,1 milyon manat, İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri bərabər olaraq 83,5 milyon manat, Naxçıvan Muxtar Respublikasının gəlirləri və xərcləri bərabər olaraq 383,7 milyon manat proqnozlaşdırılır.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov gələn ilin dövlət büdcəsinin məziyyətləri barədə söz açdı. O, Hesablama Palatasının Kollegiyasının 2019-cu ilin dövlət büdcəsi layihəsinə müsbət rəy verdiyini açıqladı. Qeyd etdi ki, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsinin "Büdcə sistemi haqqında" qanuna və digər qanunvericilik aktlarının tələblərinə uyğun hazırlanması və təqdim edilməsi nəzərə alınaraq Hesablama Palatası tərəfindən ali maliyyə sənədinin Milli Məclisdə müzakirə edilməsi tövsiyə edilir.

### Qanun layihəsi Milli Məclisin plenar müzakirəsinə tövsiyə olundu

Müzakirələr zamanı parlamentin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə bütün sahələr, o cümlədən yerli özünüidarəetmə üzrə xərclərin artırılmasını yüksək qiymətləndirdi. Komitə sədri ayrılan dotasiyaların bir hissəsinin subvensiyalara yönəldilməsini təklif etdi.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev bildirdi ki, 2018-ci il əldə edilən bütün iqtisadi nailiyyətlər 2019-cu ilin büdcəsində əsas meyar kimi qəbul edilib. Diqqətçəkən məqam odur ki, 2019-cu ilin büdcəsi sosialyönümlüdür. Komitə sədri Gənclər Fondunun fəaliyyətinin genişləndirilməsi ilə əlaqədar olaraq bu quruma ayrılan vəsaitin artırılmasını və idmançılarımıza qarşıdan gələn olimpiya oyunlarında lisenziya qazanmaq və bu yarışlarda uğurlar əldə etmək üçün görüləcək işlərə dəstək verilməsini təklif etdi.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov dedi ki, dünyadakı beynəlxalq münasibətlərimiz ölkəmizin imicini yüksəldir. "Azərbaycanın beynəlxalq münasibətləri elə bir şərait yaradıb ki, ölkəmiz heç bir sanksiyaya məruz qalmayıb" deyən komitə sədri beynəlxalq münasibətlər sahəsində işlərin aparılmasına maliyyənin artırılmasını təklif etdi.

İclasda iştirak edən ombudsman Elmira Süleymanova bir sıra təkliflərlə çıxış etdi. Bağçalara nəzarətin icra hakimiyyəti orqanlarından alınaraq Təhsil Nazirliyinə verilməsini təklif edən ombudsman bunun çox böyük əhəmiyyətinin olduğunu dedi. Bildirdi ki, Təhsil Nazirliyi Fövqəladə Hallar Nazirliyi ilə birgə reyd keçirməli, qəzalı şəraitdə olan məktəb və bağçaların təmiri məsələsinə baxmalıdırlar. Elmira Süleymanova onu da qeyd etdi ki, həqiqi hərbi xidmət illərində istifadə edilməmiş məzuniyyətlərə görə ehtiyatda və istefada olan hərbi qulluqçulara kompensasiya verilməsi prosesi tam başa çatdırılmalıdır. Ombudsmanın digər təklifləri ana südü mətbəxləri yaradılması və regionlarda sağlamlıq imkanları məhdud olan uşaqlarla bağlı reabilitasiya şəbəkəsinin genişləndirilməsi barədə oldu.

Müzakirələr zamanı deputatlardan Fəzail Ağamalı, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Asim Mollazadə, Şahin İsmayılov, Əflatun Amaşov və Kamran Bayramov 2019-cu il dövlət büdcəsi haqqında qanun layihəsi ilə bağlı təkliflərlə çıxış etdilər. Maliyyə naziri Samir Şərifov təkliflərə münasibət bildirdikdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dünya Bankı İlham Əliyevin iqtisadi islahatlarını təqdir edir

## Azərbaycanın "Doing Business-2019" hesabatında 32 pillə yüksələrək 190 ölkə arasında 25-ci yerdə qərarlaşması bunu bir daha təsdiqləyir

Müstəqil Azərbaycanın beynəlxalq aləmdə siyasi çəkisi, iqtisadi gücü durmadan artır. Artıq bir neçə gündür müzakirə olunan Dünya Bankının "Doing Business-2019" hesabatının nəticələri bunu bir daha təsdiqləyir. Hesabata əsasən Azərbaycan dünyada həm də ən çox iqtisadi islahat aparan ölkədir. Respublikamız bu sahədə MDB məkanında lider dövlətdir.

Dünya Bankının hesabatını dəyərləndirən iqtisadçı ekspertlər, deputatlar da birmənalı şəkildə qeyd edirlər ki, ölkəmizdə həyata keçirilən iqtisadi və institusional islahatlar nəticəsində böyük uğurlar əldə edilib. Ölkəmizin hesabatda 190 ölkə arasında 32 pillə yüksələrək 25-ci yerdə qərarlaşması isə həyata keçirilən islahatların nəticəsi kimi qiymətləndirilir.





### İqtisadi islahatlar Azərbaycanı daha da qüdrətləndirir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə hesab edir ki, əldə edilən uğurlar Azərbaycan Prezidentinin uzun illər apardığı məqsədyönlü fəaliyyətinin nəticəsidir: "Ümummilli lider Heydər Əliyevdən sonra Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda dövrün tələblərinə cavab verən islahatların aparılması ilə qısa zamanda ölkəmiz keçmiş postsovet məkanında islahatların sürətinə görə ikinci yerdə qərarlaşdı. Son 15 ildə isə Azərbaycan bir çox sahələr üzrə MDB məkanında lider dövlətdir və öz mövqeyini qorumaqda davam edir".

Aydın Mirzəzadənin fikrincə, əgər torpaqlarımızın bir hissəsi Ermənistan tərəfindən işğal edilməsəydi, bir milyondan çox məcburi köçkün faktoru olmasaydı, onda Azərbaycan dünya miqyasında daha öncül yerlərdə qərar tuta bilərdi. Deputat hesab edir ki, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların dərinləşməsi və əhatəliliyinin artması ölkəmizdə biznes mühitini daha da inkişaf etdirməklə əhalinin rifah halının daha da yaxşılaşmasına imkan yaradacaq.

### İqtisadiyyatımız daha da güclənəcək

Milli Məclisin deputatı Kamran Bayramov isə hesabatda Azərbaycanın dünyanın ən çox islahat aparan ölkə kimi elan olunmasını sevindirici hadisə kimi qiymətləndirib.

Deputatın sözlərinə görə, Azərbaycanda Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə iqtisadi sahədə aparılan genişmiqyaslı islahatlara bu cür yüksək qiymət verilməsi qürurvericidir: "Dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə aşağı düşdüyü, dünyada iqtisadi böhranın hökm sürdüyü şəraitdə ölkəmizdə islahatların aparılması ikiqat çətinləşmişdi. Lakin buna baxmayaraq, Prezident İlham Əliyevin iradəsi hesabına Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, xarici investorların ölkəmizə cəlb edilməsi istiqamətində məqsədyönlü islahatlar həyata keçirildi və bunun nəticəsində bir çox sahələrdə, o cümlədən, kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sferalarda inanılmaz uğurlar əldə edildi. Ölkədə iqtisadi artımla yanaşı, maliyyə sabitliyi təmin edildi. Bütün bunlar böyük nailiyyətlərdir".

Deputatın fikrincə, ölkədə görülmüş işlər nəticəsində dövlət və biznes subyektləri arasında səmərəli əməkdaşlığın daha da gücləndirildiyini, Azərbaycanda həm yerli, həm də xarici şirkətlərə biznesin qurulması üçün olduqca əlverişli şərait yaradıldığını, sahibkarlara tətbiq edilən vergi siyasətinin xeyli liberallaşdırıldığını, idxal və ixrac siyasətinin əhəmiyyətli dərəcədə tənzimlənməsi bu uğurların tərkib hissəsidir.

Kamran Bayramov əlavə edib ki, Dünya Bankının nüfuzlu reytinqində Azərbaycanın, demək olar ki, bütün indekslər, o cümlədən tikinti üçün icazələrin verilməsi, kreditlərin alınması, kiçik investorların maraqlarının qorunması, biznesə başlama üzrə ön sıralara yüksəlməsi ölkəmizdə aparılan islahatların və görülən işlərin düzgün istiqamətdə getdiyini təsdiqləyir. Bütün bunlar isə iqtisadiyyatın daha da güclənəcəyi, dövlətin daha da qüdrətli olacağına əminlik yaradır.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# "Made in Azerbaijan" Çində nüfuzlu brendə çevrilib

## Şahin MUSTAFAYEV: "Çin şirkətləri artıq pambıqçılığın və ipəkçiliyin maddi-texniki bazasının inkişafında Azərbaycanla uğurlu əməkdaşlıq edir"

***Əvvəli 1-ci səh.***

Azərbaycan pavilyonlarında sərgi ziyarətçilərinə məhsullarımız və xidmətlər barədə məlumat verilir, müxtəlif maarifləndirici materiallar təqdim edilir. Həmçinin, sərginin müxtəlif yerlərində "Made in Azerbaijan" reklam lövhələri quraşdırılıb. Noyabrın 10-dək davam edəcək sərgi çərçivəsində Çinin kənd təsərrüfatı və yeyinti sənayesi məhsullarının satışı ilə məşğul olan distribüterləri ilə Azərbaycan şirkətlərinin görüşləri təşkil olunacaq.



Sərgi çərçivəsində bir sıra forumlar da keçirilir. Azərbaycan nümayəndə heyəti noyabrın 6-da Çin Xalq Respublikasının Bazar Tənzimlənməsi Administrasiyasının, Xarici ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının və Şanxay Bələdiyyəsinin birgə təşkil etdiyi "Kəmər və yol ekoloji kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi" Forumunda iştirak edib.

Forumda çıxış edən nazir Şahin Mustafayev Azərbaycan-Çin münasibətlərinin qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslandığını vurğulayıb. Qeyd olunub ki, Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və aparılan intensiv dialoq ölkələrimiz arasında iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradır. Azərbaycan Çinin "Kəmər və yol" strategiyasını dəstəkləyən ilk ölkələrdən olmaqla yanaşı, bu təşəbbüsün reallaşdırılmasında yaxından iştirak edir. Çinin "Kəmər və yol" təşəbbüsü çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit sahəsində əməkdaşlıq üçün geniş imkanlar açır. Nəqliyyat-tranzit sahəsi ilə yanaşı, Azərbaycan Çinlə kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində də əməkdaşlıqda maraqlıdır. Çin şirkətləri artıq pambıqçılığın və ipəkçiliyin maddi-texniki bazasının inkişafında Azərbaycanla uğurlu əməkdaşlıq edir.

Ekoloji təmiz kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı Azərbaycanda həyata keçirilən tədbirlər barədə məlumat verən Şahin Mustafayev ölkəmizdə kənd təsərrüfatının inkişafına böyük önəm verildiyini vurğulayıb. Qeyd edilib ki, Azərbaycanda kənd təsərrüfatı istehsalçıları vergidən azaddırlar, onların güzəştli maliyyə resurslarına çıxışı üçün geniş imkanlar yaradılıb, texnika və lazımi infrastrukturla təmin edilib, suvarma sisteminin modernləşdirilməsi, investisiya və ixracın təşviqi proqramları ilə dəstək göstərilir. Bununla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyalar verilir.

Həyata keçirilən tədbirlər nəticəsində son 15 ildə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı 1,7 dəfə, bu ilin 9 ayı ərzində isə 4,3 faiz artıb. Azərbaycanın qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının payı 47 faizdən çoxdur. İxracın stimullaşdırılması tədbirləri nəticəsində kənd təsərrüfatı məhsullarının ixracı bu ilin ötən dövründə 13 faiz artıb.

İqtisadiyyat naziri vurğulayıb ki, Azərbaycanda aparılan sistemli islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Belə ki, Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın islahatçı 10 ölkəsi siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub.

Şahin Mustafayev qeyd edib ki, son illər həyata keçirilən sosial-iqtisadi islahatlar çərçivəsində ərzaq təhlükəsizliyi sisteminin optimallaşdırılması sahəsində də ciddi işlər görülüb, bu sahədə qabaqcıl ölkələrin təcrübəsinin tətbiqinin daha da genişləndirilməsi üçün ikitərəfli və çoxtərəfli formatda işlər aparılır.

Çin Dəmir Yolları Korporasiyasının rəhbəri Lu Donqfu ilə görüşdə isə Şahin Mustafayev iki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyini, dövlət başçılarının siyasi iradəsinin əməkdaşlığın genişlənməsində önəmini vurğulayıb. Siyasi münasibətlərin yüksək səviyyədə olması iqtisadi əməkdaşlığın, o cümlədən nəqliyyat-tranzit sahəsində əlaqələrin genişləndirilməsinə müsbət töhfəsini verir.

Nazir həmçinin diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2015-ci ildə Çinə dövlət səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında imzalanmış anlaşma memorandumu nəqliyyat-tranzit sahəsində əməkdaşlığın inkişafında mühüm önəm kəsb edir. İqtisadiyyat naziri Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin rəqabət qabiliyyəti və üstünlükləri barədə məlumat verərək iki ölkə arasında nəqliyyat sahəsində əlaqələrin koordinasiyası üçün işçi qrupun yaradılmasını təklif edib. Qeyd olunub ki, Bakıda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin təşviqi ilə bağlı Çin, Türkiyə, Qazaxıstan və Gürcüstanın iştirakı ilə tədbir keçirilə bilər.

Çin Dəmir Yolları Korporasiyasının rəhbəri Lu Donqfu İpək yolu üzərində yerləşən Azərbaycanın son illər hərtərəfli inkişafını vurğulayaraq nəqliyyat sahəsində əlaqələrin koordinasiyası məqsədilə işçi qrupun yaradılması barədə təklifi razılıqla qarşılayıb.

"Çin Milli Elektrik Mühəndisliyi Ko. Ltd" (CNEEC) şirkətinin vitse-prezidenti Cenq Çenqçün ilə keçirilən görüşdə isə nazir Şahin Mustafayev Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət və digər sahələrdə 100-dən çox Çin sərmayəli şirkətin fəaliyyət göstərdiyini qeyd edib. Bildirilib ki, CNEEC şirkətinin də Azərbaycanda iş təcrübəsi mövcuddur və şirkət müxtəlif layihələrin icrasında iştirak edir.

CNEEC-in vitse-prezidenti Cenq Çenqçün şirkətin ölkəmizdə bir sıra layihələrin reallaşdırılmasında iştirak etdiyini vurğulayaraq, Azərbaycanda avtomobil şinlərinin istehsalı sahəsində əməkdaşlıqda da maraqlı olduğunu diqqətə çatdırıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***








# Madriddə keçirilən beynəlxalq konfransın iştirakçıları Fransisko de Vitoriya Universitetində olub

İspaniyanın Madrid şəhərində "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları Fransisko de Vitoriya Universitetində olublar.

AZƏRTAC xəbər verir ki, universitetin müəllim-tələbə heyəti qarşısında çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Madriddə "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfransın keçirilməsinə göstərdiyi dəstəyə görə İspaniya hökumətinə minnətdarlığını ifadə edib.

Ölkəmizdəki tolerant və multikultural mühit barədə məlumat verən A.Paşazadə qeyd edib ki, Azərbaycan dindarları dünyanın heç bir yerində baş verən faciələrə, soyqırımlarına biganə qalmır, öz etirazlarını bildirirlər.

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov çıxış edərək bildirib ki, bu beynəlxalq konfransın əsas məqsədi dünyadakı dini tolerantlığın, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təşviqinə nail olmaqdan ibarətdir. Vurğulayıb ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub.

Tədbir digər çıxışlarla davam edib.

# Azərbaycanın Müdafiə Nazirliyi ilə Avropa İttifaqı arasında cəbhə xəttindəki hazırkı vəziyyətə dair fikir mübadiləsi aparılıb

Noyabrın 7-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhə xəttindəki hazırkı vəziyyətə dair fikir mübadiləsinin aparıldığı görüşdə general-polkovnik Z.Həsənov Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb. Nazir vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə əsas maneədir. Münaqişənin tezliklə həlli üçün Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə əməl edərək ordusunun bölmələrini torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarmalıdır.

T.Klaar Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edib. O bildirib ki, Avropa İttifaqı bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

# Azərbaycan-Polşa əlaqələri müzakirə edilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Polşa Respublikasının xarici işlər nazirinin təhlükəsizlik, Şərq siyasəti və Amerika siyasəti üzrə müavini Baroş Çixotskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə edilib və ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələləri, o cümlədən iqtisadi, energetika, nəqliyyat, ticarət, kommunikasiya, kənd təsərrüfatı və digər sahələr üzrə geniş fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov bölgədə mövcud olan geosiyasi və təhlükəsizlik vəziyyəti barədə qarşı tərəfə məlumat verib, bu xüsusda həlli uzadılmış münaqişələrin bölgənin təhlükəsizliyinə əsas hədə olduğunu vurğulayıb və Polşanın Azərbaycanın suverenlik, müstəqillik və ərazi bütövlüyünə verdiyi dəstəyinə görə təşəkkürünü ifadə edib.

Polşalı nazir müavini ölkəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də suverenlik və ərazi bütövlüyünə hörmət prinsipinə münasibətdə birmənalı mövqe tutduğunu və bu yanaşmanın bütün hallara münasibətdə eynilə tətbiq edilməsinin tərəfdarı olduğunu bildirib.

Tərəflər iki ölkə arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərin daha da inkişafında əhəmiyyətli rol oynadığını qeyd ediblər.

Ölkələr arasında mövcud olan dialoq tempinin gələcəkdə də qorunub saxlanılmasının əhəmiyyəti vurğulanıb.



# İlham Əliyevin Qarabağ siyasətinə Qarabağdan tam dəstək

## Prezidentin Ağdam səfəri məcburi köçkünlərin hakimiyyətə inam və etimad hissinin birmənalı olduğunu göstərdi

Əvvəli 1-ci səh.

6600-dən çox məcburi köçkün ailəsi üçün salınmış 18 yeni qəsəbədə 18 ümumtəhsil və 3 musiqi məktəbi, 10 məktəbəqədər təhsil müəssisəsi inşa edilib, qaz, elektrik, içməli su xətləri çəkilib, digər mühüm infrastruktur layihələri həyata keçirilib.

Dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva son 2 ildə Ağdama 3 dəfə səfər ediblər. 2016-cı ildə cəbhədə gərginliyin yarandığı bir zamanda həyatlarına təhlükə ola biləcəyini bilə-bilə Mehriban xanım Əliyeva ilə birlikdə Ağdama səfər edən İlham Əliyev ağır günlərdə əhalinin yanında olub, onlara təsəlli verərək bir daha öz dəstəyini nümayiş etdirib. Dövlət başçısının bu mərd addımı sübut etdi ki, Ali Baş Komandan kimi hər zaman ön səngərdəki əsgərin, xalqın yanındadır. Bu səfər insanlarda inam, dəyanət hissini, əsgərlərimizdə isə döyüş əzmini qat-qat artırdı.

Qeyd edək ki, aprel döyüşləri zamanı Ermənistan silahlı birləşmələrinin atdığı mərmilər nəticəsində Ağdamda 743 ev dağıdılmışdı. Cənab İlham Əliyev mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayaraq Prezidentin Ehtiyat Fondundan vəsait ayırdı. Cəmi 6-7 ay ərzində dağıdılmış evlər yenidən quruldu və dekabrın 3-də İlham Əliyev və xanımı Mehriban Əliyeva yenidən Ağdam rayonuna səfər edərək Mahrızlı kəndində tikilən həmin evlərdə yaradılan şəraitlə tanış oldular. Rayon ictimaiyyəti ilə görüşdə İlham Əliyev bunu aparılan siyasətin təzahürü adlandırdı və cəmi 6-7 ay ərzində görülən işləri dövlətin gücünün göstəricisi kimi qiymətləndirdi. Dövlət başçısı bəyan etdi ki, Ağdamın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yenidən qurulan bu evin timsalında güclənən Azərbaycan və onun mətin vətəndaşı görünür.

Noyabr aynın 5-i isə Ağdamda yeni bir tarix yazıldı. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva cəbhə bölgəsinə səfər edərək növbəti dəfə ağdamlılara öz dəstəklərini nümayiş etdirdilər. Rayon əhalisi bir daha əmin oldu ki, İlham Əliyev və Mehriban Əliyeva onların birmənalı arxa-dayağıdırlar.

### Cəbhəyanı kəndlərə qayğı - Ağdamda yollar 95 faiz təzələnib

Hələ iki il öncə Ağdama səfəri zamanı dövlət başçısı rayonda bır sıra infrastruktur layihələrinin gerçəkləşəcəyini, kənd yollarının abadlaşdırılacağını söyləmişdi. Prezidentin Ağdama növbəti səfəri verilən vədlərin vaxtında yerinə yetirildiyini bir daha təsdiqləmiş oldu.

Ağdam səfərinə Quzanlı-İmamqulubəyli - Orta Qərvənd - Xındırıstan avtomobil yolunun açılışı ilə başlayan dövlət başçısı bir daha təmas xəttində yerləşən kəndlərimizin sosial-iqtisadi inkişafını daim diqqət mərkəzində saxladığını göstərdi. Ümumi uzunluğu 25,3 kilometr olan bu yol 29 min nəfərin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirir. Bu layihənin icrası yolboyu yerləşən yaşayış məntəqələrində yük və sərnişin daşınmasının yaxşılaşmasına imkan verəcək.

Yenidən qurulan və uzunluğu 5,4 kilometr olan Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yolu 5 yaşayış məntəqəsinin 7 minə yaxın sakininə mənzil başına rahat və təhlükəsiz çatmağa imkan verəcək. Ümumiyyətlə, Ağdamda yol infrastrukturu yenidən qurulur. Rayonun yol infrastrukturu təxminən 95 faiz təzələnib, yeni yollar salınıb.

### Qarabağda daha bir Muğam Mərkəzi açıldı

Bu bir həqiqətdir ki, Ağdam hər zaman Qarabağ muğam mədəniyyətimizin məkəzlərindən biri hesab olunub. Ərazisinin böyük hissəsi işğala məruz qalsa da ötən illər ərzində muğam sənətini özünə və yaşamına dayanıqlı bir istinad nöqtəsi seçən Ağdamın görkəmli musiqiçiləri Qarabağ muğam məktəbi adlı tarixi ənənəni yaşatmaqda davam edirlər.

Muğam Qarabağla bağlı yaddaşımıza, keçmişimizə, müasirliyimizə, mənəviyyatımıza əbədiyyət, basılmazlıq, ucalıq verən möcüzədir. Zəngin keçmişi, ənənələri, dəyərli sənətçiləri olan belə lokal muğam ənənəsi musiqiçilərimiz tərəfindən yaşadılır. Bu xəzinə Heydər Əliyev Fondu tərəfindən isə dünyaya tanıdılır. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri” siyahısına salınıb.

Mehriban xanım Əliyevanın bu işdə əvəzsiz xidmətləri var. Fondun dəstəyi ilə Qarabağda - Füzuli, Ağcabədi rayonlarında muğam mərkəzləri yaradılıb. Üçüncü mərkəz isə bu ay Ağdamda açıldı.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışında iştirak edərək bu işə öz dəyərli töhfələrini verdilər. Ağdam rayonu ziyalılarının, incəsənət xadimlərinin iştirak etdiyi mərasimdə bildirildi ki, Muğam Mərkəzinin tikilməsi Mehriban xanım Əliyevanın bölgəyə olan böyük diqqət və qayğısının təzahürüdür. Bu, muğamın intibah dövrünü yaşamasına bariz nümunədir. Muğam sənətimizi yaşadan, dünyaya tanıdan Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər əvəzsizdir.

### 35 subartezian quyusu qazılacaq, 19 kənddə 121 ev təmir ediləcək

Bu gün Ağdamda reallaşan və həyata keçirilməkdə olan layihələr rayonun sosial-iqtisadi inkişafına böyük töhfə verəcək. İndiyədək görülən işlərə gəlincə isə deyə bilərik ki, rayonda elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur, qazlaşdırmanın səviyyəsi 98 faizdir. İçməli su və suvarma suyu ilə bağlı problemləri həll etmək üçün dövlət başçısı 2016-cı ildə 30 subartezian quyusunun qazılması haqqında sərəncam imzalayıb.

Görüləcək işlərlə bağlı ətraflı məlumat verərkən İlham Əliyev növbəti sərəncamı ilə əlavə 35 subartezian quyusunun qazılacağını, eyni zamanda yeni məktəbin tikintisinin aparılacağını söylədi.

Xatırladaq ki, Ağdamda xəstəxana, doğum evi, uşaq xəstəxanası, Olimpiya İdman Kompleksi tikilib. Lakin hələ də təmas xəttinə yaxın olan 19 kənddə təmirsiz 121 ev var. Dövlət başçısı bu evlərin də yenidən tikilməsi, bərpası ilə bağlı müvafiq sərəncamın veriləcəyini diqqətə çatdırdı.

### Ağdamda yenidən Qarabağ xalçaları toxunacaq

Son illər Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim tətbiqi sənət növlərindən biri olan xalçaçılığa da diqqət artıb. Xalçaçılıq tarixən həm Azərbaycan xalqının məişətinin ayrılmaz hissəsi, həm də milli mədəniyyətin bariz nümunəsi olub. Bu sahənin inkişafına xüsusi diqqət yetirən Prezident İlham Əliyevin qayğısı sayəsində artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı və Lənkəranda xalça müəssisələri istifadəyə verilib.

Növbəti müəssisə isə Ağdamda açıldı. İlham Əliyevin açılışında iştirak etdiyi “Azərxalça”nın Ağdam filialı Quzanlı qəsəbəsindəki Heydər Əliyev prospektində yerləşir. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. İlkin mərhələdə 90 nəfər işə qəbul olunub.

Filialda müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağdam, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Xocalı, Laçın, Şuşa və Zəngilan rayonlarının kəndlərində toxunan tarixi və orijinal Qarabağ xalça çeşnilərinin toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb.

### “Cənab Prezident, sizin sayənizdə ailələrimizin yanında alnıaçıq, üzüağıq”

Ölkəmizdə kənd təsərrüfatının inkişafı dövlət başçısının ən çox diqqət yetirdiyi sahəyə çevrilib. Prezident İlham Əliyevin keçirdiyi regional müşavirələr, verdiyi tapşırıqlar bu sahədə böyük inkişafa səbəb olub.

Sürətlə inkişaf edən sahələrdən biri də pambıqçılıqdır. Bu il 200 min ton pambıq tədarük olunub. Keçən il bu vaxtadək bu rəqəm təxminən 160 min ton idi. Əgər pambıq yığımı kompaniyası belə davam etsə, deməli, respublika üzrə təxminən 260 min ton pambıq tədarük edilə bilər. Hazırda ölkəmizdə pambıqçılıqda 190 min insan işləyir. Həm ailə büdcəsini yaxşılaşdırır, həm də dövlətə xeyir verir.

Prezident və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri çərçivəsində yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın pambıq sahəsi ilə tanışlıq zamanı dövlət başçısının pambıqçılarla maraqlı dialoqu diqqət çəkdi.

Pambıqçılığın inkişafından söz açan Prezident son illərdə əldə edilən uğurları yüksək qiymətləndirdi. Qeyd etdi ki, 2016-cı ildə pambığın kiloqramının qiyməti 41 qəpik idi. Sonra qaldırdıq 50 qəpiyə, bu il isə 65 qəpiyə yüksəldilib. Bu, insanların daha çox pul qazanması üçün tətbiq edilir.

Pambıqçılar isə dövlətin bu addımını belə dəyərləndirdilər: “Bəli, qazancımız yaxşıdır. Allah köməyiniz olsun. Sizin sayənizdə ailələrimizin yanında alnıaçıq, üzüağıq”.

### Atçılıq kompleksində Qarabağ cinsindən olan 200 at saxlanılır

1993-cü ildə Ağdam rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsindən sonra Azərbaycanın milli sərvəti, yerli genefondun əsaslarından olan Qarabağ atları köçkünlük həyatı yaşayır. Qarabağ Atçılıq Kompleksi 1994-cü ildən isə Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyət göstərir. Bütün çətinliklərə baxmayaraq, Qarabağ atlarını bu günədək qoruyub saxlamaq mümkün olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki “Qarabağ Atçılıq Təsərrüfatı” MMC-nin Qarabağ Atçılıq Kompleksinin açılışında da iştirak ediblər.

Kompleksdə atların daxili orqanlarının müayinəsi, boğazlığın ilkin təyini, sınıq və zədələnmələrin diaqnostikası, yarışlardan əvvəl və sonra, karantin dövründə müayinələrin aparılması, istifadə edilmiş laboratoriya avadanlığının sterilizasiyası, həmçinin seleksiya damazlıq işini aparmaq üçün avadanlıq və alətlər var. Hazırda kompleksdə Qarabağ cinsindən olan 200 at saxlanılır. Kompleksdə yaradılan şərait deməyə əsas verir ki, Azərbaycanın milli sərvəti olan Qarabağ atları hazırda öz keçmiş şöhrətinin qayıdış dövrünü yaşayır.

### Aprel döyüşləri barışmaz ruhumuzun təzahürüdür

Dövlət başçısı və xanımı Mehriban Əliyevanın Ağdama, cəbhəyanı ərazilərə səfərləri bir daha bütün qaçqın və məcburi köçkünlərin böyük qayıdışa inamını möhkəmləndirdi və Ali Baş Komandana etibarı daha da artırdı. Ölkənin hər bir vətəndaşı bir daha əmin oldu ki, Azərbaycan Prezidenti bu gün erməni tapdağında qalan torpaqlarımızın işğal faktı ilə barışmır və heç zaman barışmayacaq da.

Cənab İlham Əliyev Ağdamda bir daha bəyan etdi ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr, xaos nəticəsində Ermənistan xarici dəstəklə torpaqlarımızın bir hissəsini işğal edib. Ancaq iki il bundan əvvəl Azərbaycan Ordusu nümayiş etdirdi ki, torpaqlarımızı hərbi yolla azad edə bilərik və etdik də. Aprel, Günnüt döyüşləri bunu təsdiq edən reallıqdır. Aprel döyüşləri bizim barışmaz ruhumuzun təzahürüdür. Bu döyüşlər onu göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir.

Lakin əfsuslar olsun ki, beynəlxalq hüququn normaları tamamilə kənara qoyulur. Buna baxmayaraq Azərbaycan istədiyinə nail olacaq: “Biz ədalət tələb edirik. Biz tələb edirik ki, tarixi torpaqlarımız işğalçılardan azad edilsin və ediləcəkdir. Azərbaycan dövləti bu müqəddəs məqsədə çatmaq üçün bundan sonra da bütün lazımi tədbirləri görəcək. Ümid edirəm ki, Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək, öz işğalçı qüvvələrini tezliklə bizim torpaqlarımızdan geri çağıracaqdır. Əks təqdirdə, istənilən variant mümkündür və biz istənilən varianta hazırıq”.

### Prezident Ehtiyat Fondundan Ağdama 6,5 milyon manat ayırdı

Bütün rayonlara səfərindən sonra müvafiq sərəncamlar imzalayan dövlət başçısı Ağdam rayonunun sosial-iqtisadi inkişafı və digər müxtəlif layihələrin icrası ilə bağlı sərəncam imzaladı.

Erməni silahlı birləşmələri ilə təmas xəttinə yaxın 19 yaşayış məntəqəsində mülki əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 139 ailənin yaşadığı 121 fərdi yaşayış evinin bərpası üçün Prezidentin Ehtiyat Fondundan Ağdam Rayon İcra Hakimiyyətinə 3 milyon manat, rayonun Birinci Yüzbaşılı kəndində 132 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Prezidentin Ehtiyat Fondundan Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrıldı.

Digər sərəncama əsasən Prezidentin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılan 2,5 milyon manat vəsaitlə rayonunun əhalisi 26265 nəfər olan 20 yaşayış məntəqəsində 1050 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 35 subartezian quyusunun layihələndirilməsi və qazılması prosesi həyata keçiriləcək.

Beləliklə, dövlət başçısının imzaladığı 3 sərəncama əsasən Prezidentin Ehtiyat Fondundan bu layihələrin gerçəkləşdirilməsinə 6,5 milyon manat vəsait sərf olunacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Üzü Şuşaya doğru...

## Əlimizdə müqəddəs bayraq, qəlbimizdə yurd həsrəti, dilimizdə vətən nəğməsi ilə...

Əvvəli 1-ci səh.

Uzun məsafəni qət etdikdən sonra, nəhayət, Bayraq meydanına çatırıq. Meydanda hündürlüyü 64,5 metr olan bayraq dirəyi ucaldılıb, ərazidə yaşıllıqlar salınıb, 8 minə yaxın həmişəyaşıl ağac əkilib.





### Gənclərin milli dəyərlərə ehtiramı

Tədbiri açıq elan edən xalq artisti Nurəddin Mehdixanlı vətənpərvərlik və bu ülvi hissin aşılanması istiqamətində maraqlı fikirlər səsləndirdi. Təhsil nazirinin müavini Firudin Qurbanov üçrəngli bayrağın Azərbaycan dövlətinin müqəddəs rəmzlərindən biri və bu il 100-cü ildönümü qeyd edilən Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olduğunu vurğuladı. Qeyd edildi ki, müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaranında dövlət atributu olaraq məhz üçrəngli bayraq təsdiq olunub.





Təhsil Nazirliyinin təşəbbüsü ilə ənənəvi olaraq keçirilən “Bayraq yürüşü”nün gənclərin milli dəyərlərə ehtiram, milli ideallara bağlılıq ruhunda tərbiyə olunması baxımından əhəmiyyətini diqqətə çatdıran F. Qurbanov bu gün Azərbaycan dövlətinin yüksək sürətlə inkişaf etdiyini, bir çox beynəlxalq reytinqlərdə yaxşı uğurlar əldə etdiyini vurğuladı.

Firudin Qurbanov varlığımızı dünyaya tanıdan bayrağımızın Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında işğal altında olan ərazilərimizdə dalğalanacağı günün uzaqda olmadığını söylədi.



Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev də çıxış edərək cəbhə bölgəsində belə tədbirin keçirilməsinin gənclərdə bayraq sevgisini daha da artıracağını vurğuladı. Azərbaycan bayrağının tarixindən söz açan Alı Alıyev bayrağımızın işğal olunmuş torpaqlarımızda dalğalanacağı günə az qaldığını vurğuladı.

### Əlinə bayraq alan hər kəs onun müqəddəsliyini hiss edir



“N” saylı hərbi hissə komandirinin müavini, polkovnik Elşad Əbilov da öz növbəsində Azərbaycan Silahlı Qüvvələrinin üçrəngli bayrağımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğalda olan ərazilərimizdə dalğalandırmağa hər an hazır olduğunu bildirdi.



Tarix elmləri doktoru Anar İsgəndərov da bildirdi ki, Azərbaycanın üçrəngli bayrağının yenidən dövlət rəmzi kimi bərpa olunması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Üçrəngli bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyevin sayəsində Naxçıvan Muxtar Respublikasında dalğalanıb. Onun sözlərinə görə, hər bir Azərbaycan vətəndaşı üçrəngli bayrağımızın bütün torpaqlarımızda dalğalanması üçün əlindən gələni etməlidir.



### Təhsildə mühüm nailiyyətlər

Bu gün, işğala məruz qalmasına baxmayaraq, Füzuli rayonunda təhsilin inkişaf etdiyini deyən rayon təhsil şöbəsinin müdiri Ramella Məmmədova jurnalistlərə açıqlamasında bildirdi ki, burada ümumilikdə 12960 nəfər şagirdin təlim-tərbiyəsi ilə 2136 müəllim məşğul olur. Bildirildi ki, Füzuli rayonu üzrə 81 təhsil müəssisəsi var.

Rayon müəllimlərinin fəaliyyətini yüksək qiymətləndirən Ramella Məmmədova şagirdlərin də nəticəsindən çox razıdır: “Hər il xeyli sayda şagirdimiz ali məktəbə qəbul olur. Bu il 504 nəfər müxtəlif ali təhsil müəssisələrinə qəbul olaraq tələbə adını qazanıb. Şagirdlərimiz respublika üzrə keçirilən fənn olimpiadalarında iştirak edərək layiqli yerlər qazanırlar”.

Çıxışlardan sonra əsgərlərin döyüş hazırlığı səviyyəsini izlədik və şagirdlərin bayrağımız haqqında ifa etdiyi mahnıları dinlədik.

Əzəmətli “Bayraq yürüşü”müz bir daha göstərdi ki, əli silah tutan hər bir azərbaycanlı üçrəngli bayrağımızla torpaqlarımızın azadlığı uğrunda savaşa hazırdır. Ali Baş Komandanın bircə hücum əmri yetər ki, müzəffər Azərbaycan Ordusu qısa müddətdə torpaqlarımızı düşmən tapdağından azad etsin.

***Fərizə ƏHMƏDOVA,***
***“Azərbaycan”***

Bakı Metropoliteni-51

# İkinci yarıməsrin başlanğıcında

*Metropolitendə iki sahənin yenilikləri bütün nailiyyətlərin miqyasını əyani nümayiş etdirir*



Bakı metrosunun ikinci yarıməsrinin ilk ili də artıq geridə qaldı. Ötən ilin bu günlərində 50 illik yubileyini qeyd edən metropoliten 1 il də yaşlaşdı. “Bakı Metropoiteni” QSC-nin yaradılmasından sonrakı 5 ilin hər biri kimi, bu son ilin də öz rəngi, nəfəsi, yaddaşı, ahəngi var. Bakı Metropoliteni yarıməsrlik fəaliyyəti dövründə şərəfli yol keçib. Bu yolun sərt enişləri, uca yoxuşları, ciddi çətinlikləri olub. Bütün bunlar ölkəmizdəki iqtisadi-siyasi durumun təzahürü kimi yaşanıb. Amma yeni əsrin ilk illərindən respublika həyatının bütün sahələrində, eləcə də iqtisadiyyatdakı vüsətli dirçəliş metronun fəaliyyətinə də təsirini göstərib.

Əsrin ilk onilliyinin ikinci yarısında yeraltı yollarımızın uzunluğunda, stansiyalarımızın sayında artım müşahidə olundu. Bakı Metropoliteninin perspektiv inkişafı üzrə Dövlət Proqramının icrasına başlanıldı. Amma yeniləşmə müasirlik ruhu, dövrün nəbzinə uyğun strateji yanaşma, perspektivə daha aydın baxış tələb edirdi. 2014-cü il fevralın 27-də dövlət başçısının “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması barədə sərəncamı da məhz bu səbəbdən irəli gəldi. Sərəncama əsasən, Bakı Metropoliteni və “Azərtunelmetrotikinti” Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti yaradıldı və bundan sonrakı 5 ilə yaxın müddət göstərdi ki, dövlət başçısı Bakı metrosunun inkişafında daha yüksək sürətə nail olmağın yolunu qeyd-şərtsiz düzgün müəyyən edib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin yeni quruma təyin edilən rəhbərliyin qarşısına qoyduğu məsələlərdən ən başlıcası isə yeraltı yollarda təhlükəsizliyin yüksək səviyyəyə çatdırılması idi.

Bütün rels nəqliyyatında olduğu kimi, metropolitendə də təhlükəsizlik daha çox yol və lokomotiv təsərrüfatları ilə bağlıdır. Həmin dövrdə Bakı Metropolitenində hər iki sahədə böyük islahatların aparılmasına kəskin ehtiyac yaranmışdı.

QSC rəhbərliyi hərəkətin təşkili ilə bilavasitə bağlı olan sahələrin texniki vəziyyətinin dəqiq təhlili və qiymətləndirilməsinin əhəmiyyətini nəzərə alaraq, bu sahədə ən müasir üsulların metroya gətirilməsini bütün işlərin başlanğıcı hesab etdi. 2014-cü ilin payızında dünyanın aparıcı ölkələri, o cümlədən Almaniya, Fransa, ABŞ-ın sahə mütəxəssisləri ilə sıx əməkdaşlıq edən Rusiyanın TVEMA şirkətinin Bakı Metropoliteninin mütəxəssisləri ilə yerli şəraitdə yığdığı diaqnostika kompleksi təkcə yolun deyil, tunel qurğularının, tunel geyimləri arxasındakı mühitin, elektrik şəbəkəsinin, işarəvermə və rabitə sistemlərinin, kabellərin, tunellərin əndazə ölçülərinin, təmas relsinin, rels dövrəsinin, qızmaya məruz qalma ehtimalı olan bütün avadanlıq və texniki qurğuların vəziyyətini öyrənir, istilik ölçmələri aparır.

2015-ci il aprel ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə “Nərimanov” elektrik deposunda innovasiyalar baxımından ən yüksək 4-cü nəslə mənsub qatarlara və ilk müasir diaqnostika kompleksinə baxış keçirildi. Həmin ilin oktyabrın 16-da metropoliten infrastrukturunun çoxfunksiyalı diqanostika kompleksi rəsmi fəaliyyətə başladı və qısa müddətdə beynəlxalq səviyyədə mütəxəssislərin diqqətini cəlb edərək böyük nüfuz qazandı. Fəaliyyətinin ilk ilində kompleks Moskvada keçirilən diaqnostik vasitələrin beynəlxalq sərgi-simpoziumunda dünyada analoqu olmayan diaqnostika qurğusu kimi qiymətləndirildi. Bu ilin sentyabrında Berlində keçirilən nüfuzlu “Innotrans” sərgisində diaqnostika vasitələrinin fəaliyyətinə həsr olunmuş videoçarxın əsas hissəsi məhz Bakı Metropoliteninin diaqnostika kompleksinə həsr olunmuşdu. İtaliyanın, Hindistanın, Gürcüstanın sahə mütəxəssisləri, eləcə də Ümumrusiya Dəmiryol Nəqliyyatı Elmi-Tədqiqat İnstitutu bakılıların bu sahədə təcrübəsini öyrənmək məqsədilə Bakı Metropolitenində olublar.















Hərəkətin təhlükəsizliyi baxımından yolun texniki vəziyyəti daha böyük diqqət tələb edir. Statistika göstərir ki, dünyada baş verən dəmir yolu qəzalarının 60-65 faizi dəmir yollarındakı nasazlıqlar səbəbindən baş verir. Rels nəqliyyatında daimi nəzarət tələb edən yolun alt yatağı, üst quruluşu müxtəlif parametrlər üzrə müvafiq ölçülərə uyğun olmalıdır. Burada isə söhbət ən kiçik ölçü vahidlərinə qədər dəqiqlikdən gedir. Bu ölçülərin normalara uyğunluğuna görə yolun vəziyyəti qiymətləndirilir. Son 4 ildə yeraltı yolların cari və əsaslı təmiri sahəsindəki köklü tədbirlərlə bu işin daha məqsədyönlü şəkildə aparılması tezliklə bəhrəsini verdi. Belə ki, 2014-cü ilin əvvəlində 72 km-ə bərabər olan yeraltı yolların cəmi 400 m-i “əla” qiymətə layiq idi. Müqayisə üçün deyək ki, bu gün yolun 65 km-i əla vəziyyətə gətirilib. Kafi və qeyri-kafi yollar tamamilə ləğv edilib. Cəmi 4 il ərzində belə yüksək nailiyyətin əldə olunması “Bakı Metropoliteni” QSC-də yeraltı yollarla bağlı aparılan islahatların həyata keçirilməsində strateji istiqamətin düzgün seçilməsinin nəticəsidir.

Yeniliklərin miqyası isə ən yüksək dünya standartlarına doğru gedir. Həyata keçirilən başlıca yeniliklərdən biri yollarda taxta şpalların dəmir-beton konstruksiyalı analoqları ilə əvəzlənməsidir. Dəmir-beton şpallar istismar xüsusiyyətlərinə görə daha sərfəli və uzunömürlüdür, bütün texniki tələblərə əməl olunduqda az qulluq tələb edir. Bu da, öz növbəsində, işçi qüvvəsindən daha səmərəli istifadə etməyə imkan verir. Digər tərəfdən, dəmir-beton şpallar kənardan alınmır. 2016-cı ilin sonunda “Bakı Metropoliteni” QSC özünün dəmir-beton konstruksiyaları istehsalatı sahəsində dünyanın aparıcı müəssisələrindən olan “Vollert” şirkəti ilə işbirliyi nəticəsində beton blokların istehsalı sexi fəaliyyətə başlayıb. Sexin fəaliyyəti isə yalnız yerli kadrlar tərəfindən təmin edilir. Ümumiyyətlə, gələcəkdə istehsal gücünün artırılması da mümkün olan bu sexin məhsulu “Made in Azerbaijan” brendinə bir töhfədir. Burada istehsal olunan beton bloklar ilk olaraq “Nərimanov” elektrik deposunda çəkilən yeni sınaq yolunda uğurla tətbiq olundu, təcrübəsi öyrənildi. Hazırda isə bu beton bloklar Bənövşəyi xəttin yeni inşa olunan “Memar Əcəmi-B-03” mənzilində uğurla tətbiq olunur və artıq tunellərdə quraşdırma işləri başa çatıb.

Sadə, daha uzunömürlü və səmərəli beton şpallara keçilməsi depo və park yollarında da mərhələlərlə davam etdirilir. Burada Ələt şpal zavodunun məhsullarından istifadə olunur.

Onu da qeyd edək ki, bu yollarda yolun digər üstquruluş elementləri də texnoloji innovasiya məhsullarıdır. “Vossloh” şirkətinin 300 UTS yol bəndlərinin tətbiqi, yeni tipli İspaniya istehsalı olan yoldəyişdiricilər funksionallığı ilə seçilir. Bu yoldəyişdiricilər daha uzun, qatarlara daha geniş və sürətli manevr, yoldan yola keçmək imkanı yaradır. Yeni tətbiq olunan təmas relsi isə alüminium materialdan hazırlanmaqla gövdəsi poladdandır. Bu tip təmas relsləri elektrik enerjisinə 25 faiz qənaət etməyə imkan verir. Bütün bunlar yolla bağlı həyata keçirilən yeniliklərin sadəcə bir qismidir. Bununla yanaşı, iş prinsiplərinə gətirilən yenilikləri də qeyd etmək olar. Yola xidmət, qulluq göstərən heyətlər artıq planşet və notbuklar vasitəsilə yollara birbaşa nəzarət edir, əldə olunan materialları yerindəcə təhlil edə, yoxlanılan sahələrin, nöqsanın yerini dəqiq müəyyən edə və onun aradan qaldırılması yollarını avtomatik müəyyən edə bilirlər.

Yolla bağlı təhlükəsizliyin digər vacib tərəfi lokomotiv təsərrüfatıdır. 5 il əvvəllə müqayisədə irəliləyiş ölçüyəgəlməzdir. Hər həftə 15-20 qatar yolda işini başa çatdırmadan nasazlığa görə depoya qayıdırdı. İndi isə belə halların sayı 4 dəfəyə yaxın azalıb. Hətta elə həftələr olur ki, nasazlığa görə xətdən çıxarılan qatar olmur.

Bu nəticənin əldə edilməsi vaqonların təmir bazasının gücləndirilməsi ilə qatarların təmirarası qaçış müddətlərinin normalara uyğunlaşdırılması, təmir müddəti ötmüş qatarların xəttə buraxılması hallarının aradan qaldırılması sayəsində mümkün olub. Metromuzun yeganə “Nərimanov” elektrik deposunda icrası mümkün olan ən böyük təmir növü 3 saylı cari təmir idi. Əvvəllər il ərzində bu təmir həcmini 20-30 qatar üzərində yerinə yetirmək mümkün olurdusa, deponun istehsalat sahələrində aparılan yenidənqurma, avadanlıqların yeniləşdirilməsi və istehsalat prosesini sürətləndirən, təmirin keyfiyyətini artıran, əl əməyini minimuma endirən yeni qurğu və avadanlıqların tətbiqi nəticəsində təkcə keçən il 70 qatar göstərilən həcmdə təmir prosesindən keçib. İndi hazırda depoda təmir üzrə müddəti keçmiş qatar qalmayıb.

Əsaslı təmirə gəldikdə isə, bir daha qeyd edək ki, Bakı metrosunun deposu belə təmir üçün nəzərdə tutulmayıb və elə bu səbəbdəndir ki, vaqonların əsaslı təmiri elə əvvəldən keçmiş SSRİ metropolitenlərində, vaqon təmiri müəssisələrində yerinə yetirilib. Təkcə 2013-2015-ci illərdə 6 qatar Moskva Elektrik Qatarlarının Təmiri Zavodunun Tbilisi filialında əsaslı şəkildə yenilənib. İstismar xərclərini qat-qat yüksəldən bu vəziyyət “Bakı Metropoliteni” QSC-nin rəhbərliyini metropoliten tarixində ilk dəfə qatarların əsaslı təmirinin və modernləşdirilməsinin yerli şəraitdə təşkili ilə bağlı ciddi addımlar atmaq üzərində düşündürdü. Aydındır ki, bu işin ölkə xaricində deyil, məhz yerli şəraitdə təşkili külli miqdarda vəsaitə qənaət etməyə imkan yaratdı. Vaqonların nəqlinə, gömrük xərclərinə sərf olunan vəsaitə qənaət etməklə yanaşı, təmirin yerli şəraitdə aparılması, həm də daha yüksək keyfiyyət göstəricilərinə və vaqon təmiri sahəsində yüksəkixtisaslı mütəxəssislərin yetişməsinə imkan verdi.

Əsaslı təmirə keçid 2014-cü ildə mərhələli şəkildə başladı. Birinci mərhələ vaqonların korroziyadan təmizlənərək rənglənməsindən ibarət idi. İlk 10 vaqon qum şırnağı ilə korroziyadan təmizlənərək rəngləndi. 2015-ci ildən başlanan sonrakı mərhələdə təmir işləri vaqonların salonlarına keçdi. Döşəmə və divar örtükləri yeniləndi, qapıların rezinləri dəyişdirildi, havalandırma xətti təmizləndi. Yeni quraşdırılan oturacaqların üzərinə həkk edilən “Bakı Metropoliteni” QSC-nin loqotipi sərnişin salonunun görkəminə müsbət təsir edən dizayn elementinə çevrildi. Üçüncü mərhələdə elektrik xətləri və işıqlandırma şəbəkəsi də əsaslı şəkildə yenidən quruldu.

Vaqonların ön hissəsinin dəyişdirilməsi isə daha ciddi və səriştə tələb edən əməliyyat idi. İlk nümunələr Tbilisidə təmir olunan vaqonların üslubunu saxlasa da, sonradan vaqonların ön hissəsi yeni dizayn üzrə hazırlandı. Xüsusi materialdan hazırlanan ön hissə korroziyaya və fiziki təsirlərə davamlı, yüngül, etibarlı və təhlükəsiz, maşinist üçün daha rahat və əlverişli idarəetmə şəraiti kəsb etdi. Platformaya nəzarət güzgülərinin yeni forması və ölçüsünün böyüklüyü maşinistin görmə dairəsini genişləndirdi. Bu işlər xüsusi hazırlığı, avadanlıq bazası olmayan bir sahədə yerinə yetirilirdi. Əsas istehsalat sahəsi - qatarların əsaslı təmir sexinin tikinti işləri bunlara paralel olaraq aparıldı. Sex 2017-ci ilin noyabrında istifadəyə verildi və ilk qatar təmirə qəbul edildi. Bu, Bakı Metropoliteni üçün tarixi bir gün idi. Yeni sex il ərzində 30-a yaxın vaqonu əsaslı şəkildə təmir etmək gücünə malikdir. Bu ilin iyununda sexin ilk məhsulu olan yeniləşmiş qatar xəttə çıxdı. Bütün bunlar təkcə metropolitendə lokomotiv briqadalarının peşəkarlığının yüksəldilməsinə, elmi potensialın artırılmasına xidmət etmir. Eyni zamanda, metropoliten tarixinin ən mühüm yeniliklərindən biri olan vaqonların əsaslı təmiri ölkədə vaqonqayırma sənayesinin formalaşması üçün bir başlanğıcdır.

Əlbəttə, ötən dövrün yeniliklərindən çox bəhs etmək olar. İşarəvermə və rabitə, elektrik təchizatı, ventilyasiya sistemləri sahəsində ən müasir texnologiyalar və avadanlıqların tətbiqi ildən-ilə genişləndirilir.

Onların hər biri barədə ayrıca və geniş söhbət açmaq olar. Amma təkcə onu qeyd etməklə kifayətlənək ki, Bakı Metropoliteninin üzv olduğu Beynəlxalq “Metro” Assosiasiyasının oktyabrın əvvəlində şəhərimizdə keçirilən müşavirəsinin iştirakçıları yeraltı nəqliyyatımızın texniki inkişafı sahəsində əldə edilən nailiyyətlərin, həqiqətən də, böyük olduğunu təsdiq etdilər. “Metro” Assosiasiyasının daha bir tədbirində - Sankt-Peterburqda metropolitenlərin baş mühəndislərinin müşavirəsində də Bakı Metropoliteninin adı təcrübəsi öyrənilməyə layiq metropolitenlər sırasında çəkilib. Bu, bütün metropolitençilərimizdə qürur doğuran bir haldır. Amma Bakı metropolitençiləri nəzərdə tutduqları işlərin çox hissəsini hələ görməyiblər, qarşıda yeraltı magistralların əməkçilərini daha böyük zəfərlər gözləyir.

***Bəxtiyar ƏZİZLİ,***
***“Azərbaycan”***









# Leyla Əliyevanın təşəbbüsü paytaxtın abadlaşdırılması prosesinə böyük təkan verir

IDEA İctimai Birliyinin və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı və Bakı şəhəri rayonlarının İcra hakimiyyətlərinin dəstəyi ilə təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir. "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan daha bir həyət sakinlərin istifadəsinə verilib.



Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən verilən məlumata görə, yenilənən həyət Xətai rayonu, Afiyəddin Cəlilov küçəsi 11, Fəzail Bayramov küçəsi 5, Firuz Qənbərov küçəsi 6 və Sergey Senyuşkin küçəsi 10 ünvanlarında 600 nəfər sakinin yaşadığı 4 ədəd beş mərtəbəli binaları əhatə edir. "Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Bakı Şəhər İcra Hakimiyyətinin strukturlarının dəstəyi ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan ümumi sahəsi 6500 kvadratmetr olan həyətdəki binalarda əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Binaların girişləri əsaslı təmir edilmiş, giriş qapıları müasir standartlara uyğun yeni kod tipli qapılarla əvəzlənmiş, girişlərdəki köhnə pəncərələr yeniləri ilə dəyişdirilmiş, binaların kürsü hissəsi aqlay üzlük daşı ilə üzlənərək fasadları əsaslı təmir olunmuşdur. Binaların girişlərindəki qeyri-qanuni tikililər sökülərək əvvəlki vəziyyətinə gətirilmişdir. Həyətdə yerləşən xeyir-şər evi əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilmişdir.

Həyətdə 680 metr uzunluğunda yeni səki daşları düzülmüş, köhnə asfalt örtüyü qaşınaraq 3500 kvadratmetrə yaxın yeni asfalt örtüyü salınmışdır. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac əkilmiş, 600 kvadratmetrə yaxın ərazidə yaşıllıq zolağı salınmışdır. Sakinlərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə yeni söhbətgah, idman qurğuları, uşaqlar üçün uşaq əyləncə mərkəzi quraşdırılmış və döşəməsi rezin örtüklə örtülmüşdür.

Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır. Həyətə yeni müasir tipli oturacaqlar qoyulmuş, müasir işıqlandırma sistemi və təhlükəsizlik kameraları quraşdırılmışdır.

Qeyd edək ki, "Bizim həyət" layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilmişdir. Sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan yeddinci həyətdir. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





# Tələbələrə adlı təqaüd təqdim edilib

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 2017-2018-ci tədris ilinin yay imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan ali məktəb tələbələrinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin adlı təqaüdünün verilməsi ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ümummilli lider Heydər Əliyevin elmə, təhsilə, idmana daim böyük önəm verdiyini bildirib, ulu öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini vurğulayıb.

Müasir dünyada təhsilin mühüm rolunu qeyd edən S.Möhbalıyev dövlət başçısı İlham Əliyevin bu sahənin inkişafına xüsusi əhəmiyyət verdiyini, birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizdə çoxlu sayda müasir tələblərə cavab verən məktəb binalarının tikildiyini diqqətə çatdırıb.





AHİK-in sədri dövlət gənclər siyasətinin əhəmiyyətini vurğulayıb.

Rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verən S.Möhbalıyev qeyd edib ki, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdü 1995-ci ildə təsis olunub. Təqaüd qış və yay imtahan sessiyasının nəticələrinə görə əla və yaxşı qiymətlərlə oxuyan, həmkarlar ittifaqı fəalı olan tələbələrə verilir. İndiyədək ümumilikdə 2209 tələbə adlı təqaüdə layiq görülüb.

Məlumat verilib ki, ATİAHİ Respublika Komitəsi tərəfindən gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində müxtəlif tədbirlər həyata keçirilir və aztəminatlı ailələrdən olan tələbələrin sosial təminatının gücləndirilməsi ilə bağlı işlər görülür. Belə ki, hər il komitə tərəfindən aztəminatlı ailələrdən olan 220-dən çox tələbə pulsuz yeməklə təmin olunur.

AHİK-in sədri adlı təqaüdə layiq görülən tələbələri təbrik edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri İrfan Davudov ümummilli lider Heydər Əliyevin gənclərə, onların təhsilinə daim böyük qayğı göstərdiyini vurğulayıb, əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin uğurlu nəticələrindən bəhs edib.

Sonra yay imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan 61 ali məktəb tələbəsinə ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü təqdim olunub.

Çıxış edən tələbələr onların təhsilinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Şamaxıda Qaravəlli kənd məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib

Noyabrın 7-də Çex Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən həyata keçirilən "Enerji səmərəliliyinin təmin olunması" layihəsi çərçivəsində Şamaxı rayonu A.Rəcəbov adına Qaravəlli kənd tam orta məktəb binasının əsaslı təmirdən sonra açılış mərasimi olub.

Açılış mərasimində təhsil nazirinin müavini Firudin Qurbanov, Çex Respublikasının təhsil, gənclər və idman nazirinin müavini xanım Dana Prudikova, Çexiyanın Azərbaycandakı səfiri Milan Ekert, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov və digər rəsmi şəxslər iştirak edib.

AZƏRTAC xəbər verir ki, mərasimi rayon təhsil şöbəsinin müdiri Eyvaz Eminalıyev açaraq, layihə çərçivəsində kənd məktəbinin mövcud üç korpusundan birinin dam örtüyünün tamamilə dəyişdirildiyini, ümumiyyətlə, binanın əsaslı təmir edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, 4 sinif və 1 kompüter otağı ən müasir havalandırma sistemi ilə təmin olunub. 11 kompüter istifadəyə verilib ki, bu da tədrisin yüksək səviyyədə təşkilinə imkan yaradacaq.



Sonra təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edib, ölkəmizdə təhsilin inkişafı istiqamətində görülən işlərdən, qazanılan uğurlardan danışıb. Nazir müavini "Enerji səmərəliliyinin təmin olunması" layihəsinin reallaşmasına görə Çexiya səfirinə təşəkkürünü bildirib.

Səfir Milan Ekert layihənin ekoloji əhəmiyyətindən söz açıb. İnsanlar və ölkələr arasında körpülərin qurulmasının heç də asan olmadığını vurğulayan səfir Çexiya ilə Azərbaycan arasında yaxşı münasibətlərin, strateji anlaşmanın olduğunu vurğulayıb. Bildirib ki, hələ qarşıda müxtəlif sahələrdə bir çox əməkdaşlıq imkanları mövcuddur.

Çexiyanın təhsil, gənclər və idman nazirinin müavini Dana Prudikova çıxışında iki ölkənin bir-birinə həmişə dəstək olduğunu söyləyib, təhsilin keyfiyyətinin vacibliyini, bunun üçün yaxşı şəraitin yaradılmasının zəruriliyini diqqətə çatdırıb, məktəbin kollektivinə uğurlar arzulayıb.

Sonra qonaqlar kompüter və sinif otaqlarını gəzib, yaradılan şəraitlə tanış olublar.

Layihə çərçivəsində Qaravəlli kənd məktəbi ilə Çexiyanın "Studnitse u Naxoda" kənd məktəbi qardaşlaşıb.

# Berlində Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünə həsr edilmiş elmi konfrans keçirilib

Noyabrın 6-da Almaniya paytaxtındakı Şarlottenburq sarayında Heydər Əliyev Fondunun və Azərbaycan Respublikasının AFR-dəki səfirliyinin təşkilati dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaradılmasının 100-cü ildönümünə həsr edilmiş "Şərqdə ilk dünyəvi parlament respublikası: dəyərlər və irs" mövzusunda elmi konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov və AFR Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə əlaqələndiricisi Maykl Zibert tədbir iştirakçılarına müraciətlə təbrik nitqləri söyləyiblər.

Diplomat qeyd edib ki, Azərbaycan 100 il bundan əvvəl Şərqdə ilk demokratik respublika elan etməklə sekulyar dövlətə çevrilib. Burada din dövlətdən ayrılıb, qadınlara geniş hüquqlar verilib, milli azlıqlar yeni ölkənin tamhüquqlu vətəndaşlarına çevrilib. Azərbaycandakı alman icmasına da böyük hüquqlar verilib. Şərqdə ilk universitet, opera və balet yaradılıb.

Səfir bu konfransın təşkilini dəstəklədiyinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Maykl Zibert öz çıxışında Azərbaycan Xalq Cümhuriyyətini nümunəvi demokratik respublika adlandırıb. O deyib: "Bu, millətin daxilində mövcud olan potensiala dəlalət edir. Əlbəttə, qısa müddətdə bu dövlət bütün problemləri həll edə bilmədi. Əvəzində bugünkü Azərbaycan demokratik cümhuriyyətin varisidir, bu gün Azərbaycanda həyata keçirilən islahatlar prosesində məhz birinci respublikanın ənənələrinə müraciət edilir və Azərbaycan Xalq Cümhuriyyəti banilərinin arzularını həyata keçirmək imkanı yaranıb".

Zibert xatırladıb ki, o uzaq illərdə olduğu kimi bu gün də Azərbaycanda antisemitizm və ksenofobiya yoxdur. O vaxt olduğu kimi, bu gün də ölkədə tolerantlıq və etnik müxtəliflik hökm sürür. O deyib: "İpək yolu, Bakıdan Qarsa qədər və daha sonra Avropaya gedən dəmir yolu Almaniya üçün çox vacibdir və bu məsələdə Azərbaycan böyük rol oynayır".

Konfrans iştirakçılarına Azərbaycan Xalq Cümhuriyyətinin tarixi haqqında sənədli film nümayiş etdirilib.

Heydər Əliyev Mərkəzinin direktorunun müşaviri Rəşad Kərimov Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının tarixi, onun ənənələri, o dövrə xas olan yeniliklər barədə məlumat verib. O qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verilib, məktəblərdə təhsil Azərbaycan dilində aparılmağa, Azərbaycan dilində mətbu nəşrlər buraxılmağa başlanıb, Azərbaycan xalqının tarixində ilk universitet yaradılıb, Paris Sülh Konfransında Millətlər Liqası Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanıyandan sonra səfirliklər açılıb. R.Kərimov neçə onillik sonra Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Azərbaycanın dövlət bayrağı kimi bərpa olunmasının tarixi barədə də söhbət açaraq xatırladıb ki, bu hadisə ilk dəfə Naxçıvanda, Azərbaycan xalqının ümummilli lideri, o vaxt muxtar respublikanın Ali Məclisinin sədri olan Heydər Əliyevin təşəbbüsü ilə baş verib.

Berlin Azad Universitetinin (Forschungsverbund SED-Staat an der Freien Universitöt Berlin) elmi işçisi Enriko Zivald (Enrico Seewald) öz məruzəsində tarixi öyrənməyin zəruri olmasını qeyd edib. Alim almanların məşhur bir kəlamını xatırladıb: "Öz tarixini bilməyən insan bugünkü dövrü anlaya bilməz". Buna görə də o, əmin olduğunu bildirib ki, tarixi öyrənmək zəruridir. E.Zivald özünün tədqiqat qrupu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsinə dair görülmüş işlər barədə söhbət açıb, bildirib ki, əməkdaşı olduğu universitetdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş bir sıra tədrislə bağlı tədbirlər keçirilib və bu tədbirlərin hamısı arxiv materiallarına əsaslanıb.

Alim Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair materiallar saxlanılan bir neçə alman arxivinin adını çəkib. Onlardan biri AFR XİN-in arxividir. Zivald xatırladıb ki, Azərbaycan tarixçiləri də həmin arxivdə işləyiblər. Natiq vurğulayıb: "Məsələn, akademik Yaqub Mahmudovun fikrincə, alman arxivləri həm də ona görə əhəmiyyətlidir ki, almanlar özləri həmin hadisələrin canlı şahidləri olub. Bu, həqiqətən, belədir. Həmin hadisələrin şahidləri gördüklərini sənədli şəkildə dəqiq təsvir edib, sonra bu sənədləri arxivə təhvil veriblər". XİN arxivindən başqa bu baxımdan çox əhəmiyyətli olan Nürnberq arxivində də Azərbaycan Xalq Cümhuriyyəti barədə sənədlər var.

Zivald bildirib ki, onun qrupu Azərbaycan Xalq Cümhuriyyəti barədə sənədləri skanlaşdırır və zamanın təsirinə məruz qalmamaq üçün indi həmin sənədləri elektron formada saxlayır. Tarixçi deyib: "Bu arxivlərdə saxlanılan informasiya mənbəşünaslıq baxımından çox qiymətlidir. Bizim vəzifəmiz onların öyrənilməsinə fasilə verməməkdir".

Azərbaycan Milli Elmlər Akademiyasının Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri, fəlsəfə doktoru Nərgiz Axundova Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik missiyası, bu yolda qarşıya çıxan çətinliklər, xüsusən Fransaya viza alınmasında süni əngəllər barədə danışıb. Alim həm Azərbaycan Xalq Cümhuriyyəti əhalisinin, həm də onun parlamentinin çoxmillətli tərkibi barədə məlumat verib. N.Axundova öz çıxışında vurğulayıb ki, birinci cümhuriyyətin rəhbərliyi Azərbaycanın alman icmasına, həmçinin Azərbaycanda yaşayan almanlara xüsusi diqqət yetirirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru Lamiyə Qafarzadə öz məruzəsində Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət, təhsil sahəsində qazandığı uğurlar, habelə ölkədə insan haqlarının bərabərləşdirilməsi məsələlərini diqqətə çatdırıb. O, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin milli tərkibini, onun həqiqətən, demokratik xarakter daşımasını xatırladıb. O qeyd edib ki, yeni yaradılmış Bakı Universitetinin ilk rektoru professor Razumovski olub, universitetin 44 professorundan yalnız 4-ü azərbaycanlı idi. Alim 1919-cu il mayın 28-də - Azərbaycan Xalq Cümhuriyyətinin birinci ildönümü günündə Parisdə Azərbaycan nümayəndə heyəti ilə görüşmüş ABŞ Prezidenti Vudrol Vilsonun məşhur kəlamını xatırladıb: "Bir dəfə bizə Azərbaycandan bir qrup çox maraqlı və ləyaqətli centlmen gəlmişdi. Biz azadlıq konsepsiyası, hüquqlar və ədalət konsepsiyası barədə danışanda mən dərhal başa düşdüm ki, biz eyni dildə danışırıq".

Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, professor Eva-Mariya Aux Azərbaycan-alman münasibətləri kontekstində "xalqlar dostluğu" termininin necə anlaşılması barədə fikirlərini bölüşüb. Tarixçi çıxışının əvvəlində deyib: "Mən belə başa düşürəm ki, həqiqi xalqlar dostluğu ilə Stalinin xalqlar dostluğu şüarı altında heç bir ortaq cəhət yoxdur. Dostluq, ilk növbədə, iki xalq arasında anlaşma deməkdir". Professor Aux almanların azərbaycanlıları necə anlamasını Azərbaycan ədəbiyyatına almanların sevgisi nümunəsində, o cümlədən Nizaminin, Füzulinin, Nəsiminin poeziyasına ehtiramla yanaşması nümunəsində nümayiş etdirdi. O, Azərbaycanda yaşamış almanların xatirələrinin toplandığı kitabı barədə danışdı.

Potsdam Universitetinin dosenti Matiyas Dofnfeld (Matthias Dornfeldt) öz məruzəsində Azərbaycanın minilliklərlə hesablanan tarixə malik olduğunu qeyd etdi. O əmindir ki, bu tarix bütün dövrlərdə Azərbaycanda məskunlaşmış xalqların tolerantlığı, burada antisemitizm və başqa mədəniyyətlərə münasibətdə dözümsüzlük olmaması ilə fərqlənib. Məruzəçi qeyd edib ki, əsası görkəmli siyasi xadim Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçilik siyasəti sayəsində bu gün ölkədə müxtəlif xalqların, müxtəlif dinlərin və məzhəblərin nümayəndələri dinc yanaşı yaşayır. Bu gün Azərbaycanda 47 min yəhudi yaşayır və Azərbaycan onların öz evidir. Azərbaycanda yəhudilər üçün sinaqoqlar və məktəblər var, hətta İsrailə mühacirət etmiş yəhudilər də Azərbaycanla əlaqəni kəsmir, onu yenə özlərinin vətəni hesab edirlər. Ləzgilər, talışlar, tatlar, qrızlar, saxurlar, gürcülər, avarlar, udinlər - onların hamısı Azərbaycan cəmiyyətinin tamhüquqlu üzvləridir. Məruzəçi heyranlığını gizlətmədən deyib: "Hələ molokan mədəniyyətinin nümunəvi adacığı olan İvanovka kəndini görəsiniz! Bu kəndin sakinləri bu gün özlərini etnik rusların çoxunun Rusiyanın özündə olduğundan daha yaxşı hiss edir".

Dosent Azərbaycan paytaxtında keçirilmiş sivilizasiyalararası dialoqa dair silsilə tədbirlər, ölkə rəhbərliyinin bu mövzuya diqqətini göstərən beynəlxalq humanitar forumlar barədə danışıb.

Turistlər üçün memarlığa aid soraq kitabının müəllifi Hayke Mariya Yohenninq (Heike Maria Johenning) öz əsərini auditoriyada təqdim edib. Bu kitaba İçərişəhərin, Bakının mərkəzinin və tarixi abidələrin təsvirləri daxil edilib. Müəllif etiraf edib ki, Şirvanşahlar sarayının girişində daş üzərində oyma ustalarının işləri onu heyran edib. Yohenninq Bakıda işləmiş və bu şəhəri dünyanın ən gözəl guşələrindən birinə çevirmiş memarlar barədə danışıb. Sənətşünas alim çıxışı boyunca Azərbaycan paytaxtında olarkən şəxsən özünün çəkdiyi fotoşəkilləri nümayiş etdirib. çıxışının sonunda deyib: "100 il bundan əvvəl olduğu kimi, bu gün də Bakı kosmopilt gözəl meqapolisdir". Onun bu sözləri konfrans iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Səhnə ilə zal arasında canlı dialoq xarakteri daşıyan konfransda panel iştirakçıları qonaqların suallarını cavablandırıblar.

# Dövlət Sərhəd Xidməti ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında niyyət sazişi imzalanıb





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Dövlət Sərhəd Xidməti (DSX) qarşısında qoyduğu tapşırıqların yerinə yetirilməsi üçün DSX tərəfindən elmi-texniki tərəqqinin nailiyyətlərinin xidməti-döyüş fəaliyyətində geniş istifadə edilməsinə, xidmətin təşkilində innovativ məhsulların, yüksək texnologiyaların və kreativ həllərin tətbiqinə ciddi əhəmiyyət verilir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, bu sahədə Xidmət tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və onun nəzdində fəaliyyət göstərən Yüksək Texnologiyalar Parkı ilə qarşılıqlı faydalı münasibətlər qurulub, dövlət sərhədinin mühafizəsi üzrə elmi tədqiqatların, təcrübə-konstruktor işlərinin aparılması və sərhəd mühafizə orqanlarının xidməti fəaliyyətində tətbiqi üzrə əməkdaşlığın inkişafı təmin edilib.

Noyabrın 7-də DSX-nin aparatında Dövlət Sərhəd Xidməti ilə AMEA arasında niyyət sazişinin imzalanması mərasimi keçirilib. Sazişdə AMEA-nın Yüksək Texnologiyalar Parkında dövlət sərhədinin mühafizəsi təyinatlı müxtəlif növ silahların, döyüş sursatlarının, mühəndis-texniki sistemlərin və qoruyucu hərbi geyim formalarının hazırlanması üzrə əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulub.

Sənədi AMEA-nın prezidenti, akademik Akif Əlizadə və Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev imzalayıblar.

A.Əlizadə və E.Quliyev tədbirdə çıxış edərək dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkili üçün müasir texniki nailiyyətlərin tətbiqinin xüsusi əhəmiyyətini vurğulayaraq birgə fəaliyyətin uğurla davam etdirilməsi sayəsində qarşıya qoyulan məqsədlərə nail olunacağına əminliklərini bildiriblər.

***"Azərbaycan"***

# Beynəlxalq sərgidə ölkəmizə qarşı növbəti təxribatın qarşısı alınıb

Londonda "Dünya səyahət bazarı" sərgisində yer alan Ermənistan stendində işğal altında olan Dağlıq Qarabağa aid bölmənin ayrılması və sərgi iştirakçılarına təbliğat vasitələrinin paylanması cəhdlərinin qarşısı alınıb.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Turizm Bürosunun icraçı direktoru Florian Zenqstşmidin təşkilatçılar qarşısında qaldırdığı qəti tələb və rəsmi etiraz nəticəsində stend və Qarabağın turistik bölgələrini nümayiş etdirən çap materialları yığışdırılıb.

Qeyd edək ki, sərgidən öncə də Azərbaycan tərəfindən təşkilatçılara bu barədə məlumat verilib. Bundan sonra da digər bütün beynəlxalq tədbir və sərgilərdə Ermənistanın Dağlıq Qarabağı ayrıca subyekti kimi təqdim etməyə yönəlmiş təxribat mahiyyətli bütün cəhdlərinin qarşısı alınacaq.

# İrandan Azərbaycana narkotik vasitə keçirmək istəyən şəxslər saxlanılıblar

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin mühafizəsinin təmin edilməsi tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətindən bildiriblər ki, 4 noyabr 2018-ci il tarixdə saat 15:25 radələrində DSX Sahil Mühafizəsinin texniki müşahidə məntəqələri tərəfindən Astara rayonu Şahağacı kəndi istiqamətində İİR-dən AR-ə doğru hərəkət etməklə sərhəd sularımıza daxil olmuş hədəf aşkar edilmişdir.

Həmin üzmə vasitəsi qısa müddət ərzində ərazidə dayanmış və İİR sularına doğru geri üzmüşdür. Qeyd olunan koordinatlar dərhal sərhəd gözətçi gəmisi tərəfindən nəzarətə götürülmüşdür. 2018-ci ilin 5 noyabr tarixində saat 10:10 radələrində həmin ərazidə balıq ovu məqsədilə qayıqla dənizə çıxmış Astara rayonu Şahağacı sakinləri - 1985-ci il təvəllüdlü Məmmədov Əlibala Dadaş oğlu və 1994-cü il təvəllüdlü Feyruzzadə Elzamin Rafiq oğlu özlərini şübhəli apardıqları üçün sərhəd gözətçi gəmisi tərəfindən saxlanılmış, qayığın dayandığı koordinatlarda suya keçirilmiş baxış zamanı 3 (üç) ədəd bağlamada ümumi çəkisi 2 kq 420 qr olan narkotik vasitə aşkarlanaraq götürülmüşdür.

Hadisə ilə bağlı DSX-nin İstintaq-Təhqiqat İdarəsi tərəfindən Azərbaycan Respublikası CM-in 318.2-ci, 206.3.2-ci, 234.4.1-ci, 234.4.3-cü maddələri ilə cinayət işi açılmışdır.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.



# İQTİSADİYYAT

# Aqrar inkişafın yeni hədəfləri

*Əvvəli 1-ci səh.*



İndi aqrar sahədə müasir texnika və texnologiyalardan istifadə edərək məhsul bolluğunu yaratmaq günümüzün tələbidir. Ölkəmizdə bu istiqamətdə bir sıra işlər görülüb. İlk növbədə müasir tələblərə cavab verən, məhsulu itkisiz yığan, becərmədə az yanacaq sərf edən texnikalar alınaraq fermerlərə güzəştli qiymətlərlə satılır. Təkcə cari ilin 9 ayında 5700 kənd təsərrüfatı texnikası alınıb, fermerlərin işi yüngülləşib, məhsuldarlıq çoxalıb. Digər tərəfdən, məhsul bolluğuna nail olmaq üçün meliorativ tədbirlər görülür. Əkin sahələrinin keyfiyyətli su ilə təmin edilməsi də məhsuldarlığı stimullaşdıran əsas amillərdən biridir.

Aqrar sektorun inkişafında iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində görülən işlər də nəticəsiz qalmır. Belə ki, ən yüksək məhsuldarlıq belə təsərrüfatlarda əldə edilir. Məsələn, taxılçılıq sahəsində iri fermer təsərrüfatlarında hər hektardan 50 sentner məhsul götürüldüyü halda, kiçik fermer təsərrüfatlarında bu rəqəm 30 sentnerdir. Cari ildə 3 milyon ton taxılın tədarük edilməsində iri fermer təsərrüfatlarının da rolu böyükdür.

Ümumiyyətlə, dünyada son dövrlər aqroparkların həm sayı, həm də istehsal və emal sferası genişlənir. Bu da müsbət nəticə verir. Belə ki, aqroparklarda həm məhsul yetişdirilir, həm də emal edilərək son məhsula çevrilir, daha çox gəlir əldə etməyə imkan yaradır. Odur ki, aqrar sektora kapital qoyuluşu ildən-ilə artır.

Ölkəmizdə müxtəlif istiqamətlər üzrə aqroparklar yaradılır. Hazırda 4 aqropark fəaliyyət göstərir, ümumilikdə 45 aqroparkın yaradılması nəzərdə tutulub. Fəaliyyət göstərən aqroparklarda məhsuldarlıq çox yüksəkdir. Xüsusilə tərəvəzçiliklə məşğul olan aqroparkların timsalında bunu söyləmək olar. Son 2 ildə pomidor istehsalının və ixracının dəfələrlə artması bunu sübut edir.

Kənd təsərrüfatında mövcud olan ənənəvi sahələrin dirçəldilməsi də aqrar sektorda məhsul istehsalının artım dinamikasına müsbət təsir göstərir. Məsələn, pambıqçılığın inkişafı ilə bağlı qəbul edilən qərardan sonra 2016-cı ildə ölkədə 90 min ton, keçən il 207 min ton pambıq tədarük edilib. Cari ildə 250-260 min ton pambıq tədarük edilməsi nəzərdə tutulub. Pambıqçılığın inkişafı təkcə iqtisadi nəticələrlə məhdudlaşmır. Bu, həm də sosial məsələlərin həllinə imkan yaradır. Belə ki, pambıqçılığın inkişafı istiqamətində görülən işlər sayəsində 190 mindən çox insan bu sahədə çalışaraq məşğulluğunu təmin edir. Eyni zamanda, bol məhsul pambıqçılara yaxşı gəlir əldə etməyə imkan yaradır. Beləliklə, ölkəmizin geniş bir coğrafiyasında da məhsul istehsalı artır və üstəlik, həmin bölgədə yaşayan insanlar yüksək gəlir əldə etməklə öz güzəranlarını yaxşılaşdırırlar.

Sovetlər dönəmində Azərbaycanda üzümçülük geniş yayılmışdı. Ötən əsrin 80-ci illərinin ikinci yarısında üzüm bağlarının məhv edilməsi nəticəsində bu növ məhsulun istehsalı da aşağı düşmüşdü. Üzümçülüyün yenidən bərpası məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin edilməsində də əhəmiyyətli rol oynayır. Üzümçülük gəlirli sahədir, yetişdirilən məhsulun alıcıları çoxdur. İstər ölkə daxilində, istərsə də xarici bazara məhsul çıxarmaq mümkündür. Digər tərəfdən, şərabçılıqda xammal kimi üzümdən istifadə edilir.

Baramaçılığın bərpası da bu sahədə məhsul istehsalının yüksək templə artmasına imkan yaradır. 2015-ci ildə cəmi 236 kiloqram məhsul istehsal olunduğu halda bu il 500 tondan çox barama tədarük edilib. Barama istehsalı yüksək gəlirli sahədir. Bu məhsulu yetişdirmə müddəti 30-40 gündür. Onun istehsalı bölgədə yaşayan insanların məşğulluğunun təminatında önəmli rol oynayır. Əgər 2016-cı ildə bu işlə 3 min, 2017-ci ildə 10 min insan məşğul olurdusa, cari ildə onların sayı 22 minə çatıb. Üstəlik, məhsul emal edən Şəki İpək Kombinatında da çalışanların sayı artıb. Başlıcası isə, Azərbaycan ipəyinin daxili tələbatı ödənilməklə xarici bazara çıxarılmasına da imkan yaranıb.

Ölkəmizin meyvə yetişdirmək potensialı da yüksəkdir. Müxtəlif növ meyvələrin istehsalının bərpası müsbət nəticəsini xurma istehsalında özünü daha çox göstərir. Bunun sayəsində xurma ixracı 2 dəfə artıb. Həmçinin yeni nar bağları salınır. Yaxın illərdə narın ixracında da belə yüksək nailiyyətlərin əldə olunmasına imkan yaranacaq. Meyvə ixracında fındığın özünəməxsus yeri var. Bu məhsula dünya bazarında tələbat böyükdür. Üstəlik, tez xarab olmadığı üçün onun saxlanması da asandır. Yeni bağların salınması sayəsində fındıq plantasiyalarının ərazisi hazırda 70 min hektardır, hədəf kimi isə bu rəqəmi 83 min hektara çatdırmaqdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# ARDNF "Şahdəniz" layihəsi üzrə gəlirlərini açıqlayıb

### *Fond bu il AÇG layihəsindən 8,3 milyard dollar gəlir götürüb*

2007-ci ildən bu ilin noyabr ayının 1-dək Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Şahdəniz" yatağı üzrə qazın satışından əldə olunan ümumi gəlirləri 2 milyard 506 milyon dollar olub.

ARDNF-in ictimaiyyətlə əlaqələr departamentindən bildiriblər ki, bu ilin əvvəlində "Şahdəniz" layihəsi çərçivəsində xarici sərmayəçilər tərəfindən ARDNF-ə 108 milyon dollar əlavə bonus da ödənilib.

Məlumatda həmçinin bildirilir ki, fond 2001-ci ilin əvvəlindən bu il noyabr ayının 1-dək Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində ümumilikdə 136 milyard 782 milyon dollar gəlir əldə edib. Cari ilin yanvar-oktyabr aylarında isə AÇG layihəsi çərçivəsində ARDNF-ə 8 milyard 296 milyon, o cümlədən "Şahdəniz" yatağı üzrə kondensatın satışından 181 milyon dollar vəsait daxil olub.

Bu il yanvarın 29-da isə fonda "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" SOCAR ilə xarici hasilat şirkətləri arasında imzalanmış yeni sazişə uyğun olaraq, ilk bonus ödənişi kimi 450 milyon dollar köçürülmüşdü.

# Azərbaycan Londonda keçirilən beynəlxalq turizm sərgisində iştirak edir

Londonun "Excel London" arenasında "World travel market-2018" beynəlxalq turizm sərgisi açılıb. Beynəlxalq sərgidə Azərbaycan da iştirak edir. Sərgi çərçivəsində Azərbaycan Turizm Bürosu ölkənin yeni turizm brendi olan "Take another look" ("Yenidən fərqli baxışla bax") marketinq kompaniyasının təqdimatını keçirib.

Müxtəlif ölkələrin dövlət nümayəndələri, dünyanın aparıcı turizm şirkətləri və mütəxəssislərinin, eləcə də media nümayəndələrinin iştirak etdiyi təqdimatda Azərbaycan Turizm Bürosunun icraçı direktoru Florian Zenqstşmid çıxış edərək yeni turizm brendi haqqında ətraflı məlumat verib. Bildirib ki, beynəlxalq bazara daha çox turizm təklifləri çıxarmaq, dünyanın məşhur destinasiya brendi olmaq, əsrarəngiz maddi və mənəvi irsimizi dünya ilə bölüşmək əsas məqsədlər sırasındadır.

Büronun brend və marketinq üzrə direktoru Fidan Əliyeva isə Azərbaycanın mədəniyyətindən və tarixindən danışıb: "Ölkəmiz bir çox imkanlara malikdir. Mədəniyyətimiz, insanlarımız, qədim tarixi keçmişimiz, təbii gözəlliklərimiz turistləri hər zaman özünə cəlb edir. Bizim yeni brendi yaratmaqda məqsədimiz Azərbaycanın daha bir gözəlliyini üzə çıxarmaqdır".

Təqdimatdan sonra Azərbaycanın turizm brendi və potensialı haqqında beynəlxalq media üçün mətbuat konfransı keçirilib. Azərbaycan Turizm Bürosunun baş icraçı direktorunun müavini Bəhruz Əsgərov media və turizm şirkətlərinin nümayəndələrinə Şəki, Şamaxı və digər turizm şəhərləri, eləcə də ölkəmizdə keçirilən beynəlxalq yarışlar haqqında məlumat verərək bildirib ki, qarşıdakı illərdə Azərbaycan Turizm Bürosunun Almaniya, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Hindistan, Çin, Böyük Britaniya, Koreya Respublikası və Fransada nümayəndəliklərini açmağı planlaşdırırıq.

Sonra Azərbaycan Turizm Bürosunun nümayəndələri ölkəmizin turizm potensialı, marketinq strategiyası və yeni turizm siyasəti barəsində sualları cavablandırıblar.

Yeni kompaniyanın məqsədi xarici turistləri Azərbaycana dəvət etmək, bütün səyahətçilərə ölkəmizin özünəməxsusluğunu göstərmək və onlara unudulmaz xoş təəssüratlar bəxş etməkdir. Azərbaycanın yeni turizm imicinin, ölkəmizin turistlər üçün cəlbedici məkanlardan biri olması faktının dünya ictimaiyyətinə çatdırılması üçün qeyd olunun təqdimat xüsusi önəm kəsb edir.

Turizmi ölkənin ikinci ən böyük inkişaf istiqamətinə çevirmək və 2023-cü ilədək Azərbaycana gələn turistlərin sayının iki dəfə artırılmasına nail olmaq kompaniyanın strateji hədəfləri sırasındadır.

# Azərbaycanın ixrac missiyası Bolqarıstandadır

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə ölkəmizin ixrac missiyası Sofiyadadır.

Missiyaya qida məhsulları, şərab və digər spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən 25 yerli şirkətin nümayəndəsi daxildir. Missiya çərçivəsində onlar görüşlər keçirir, ixrac məsələlərinə dair müzakirələr aparır.

# "Surqutneftqaz"la əməkdaşlığın perspektivləri müzakirə olunub

SOCAR AQŞ-də "Surqutneftqaz" ASC-nin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

Qonaqlara SOCAR AQŞ-nin Azərbaycanda və Banqladeş Xalq Respublikasında həyata keçirdiyi qazma layihələri barədə məlumat verilib. "Ümid" və "Bulla" kimi mürəkkəb geoloji quruluşa malik yataqlarda aparılan qazma layihələri qonaqlarda zəngin təəssürat yaradıb.

Nümayəndə heyəti həmçinin müəssisədə həyata keçirilən dinamik idarəetmə sistemi, rəqəmsal texnologiyaların tətbiqi, işçi personalının təkmilləşdirilməsi istiqamətində aparılan yeni layihələrlə tanış olub.

Görüş qarşılıqlı maraq doğuran məsələlər və ikitərəfli əməkdaşlığın daha geniş inkişaf perspektivləri barədə müzakirələrlə sona çatıb.

# Özünüməşğulluq proqramı çərçivəsində tədbirlər keçirilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan özünüməşğulluq proqramı çərçivəsində Hacıqabul, Şamaxı, Ağsu, İmişli, Zərdab və digər bir neçə rayonda 50-dən çox işsiz və işaxtaran vətəndaşa mal və materiallar təqdim olunub.



Onlardan böyük əksəriyyəti biznes-planlarına uyğun olaraq, heyvandarlıq üzrə kiçik ailə təsərrüfatlarını yaratmaq üçün qaramal və davarla təmin ediliblər. Digər bir qisminə isə xidmət sahələri üzrə özünüməşğulluq fəaliyyətini qurmaq üçün zəruri materiallar verilib.

Ümumilikdə cari ilin ötən dövründə özünüməşğulluq fəaliyyətini qurmaq üçün potensialları olan 7300-dən çox vətəndaş seçilərək proqram üzrə təlimlərə cəlb edilib. Onların arasında əlilliyi olanlara, şəhid ailələrinin üzvlərinə, məcburi köçkünlərə, sosial cəhətdən digər həssas qruplara üstünlük verilib. Təlim kursunu bitirdikdən sonra qiymətləndirmələr zamanı biznes planları uğurlu hesab edilənlərin mal və materiallarla təmin olunması həyata keçirilir.

Cəbrayıl, Füzuli, Tərtər, Kürdəmir, Goranboy, Bərdə və digər rayonlarda, habelə Bakı və Sumqayıt şəhərlərində proqram iştirakçılarından bir qismi mal və materiallar alaraq kiçik ailə təsərrüfatları qurublar. Ümumilikdə bu il proqram iştirakçılarından 600 nəfərdən çoxu aktivlərlə təmin olunaraq fərdi təsərrüfatlarını yaradıb. Hazırda bu istiqamətdə iş davam edir.

# Yeni platformanın tikintisində yerli infrastruktur və işçi qüvvəsindən istifadə ediləcək




"Yeni əsrin müqaviləsi" çərçivəsində "Azəri-Çıraq-Günəşli" (AÇG) müqavilə ərazisində daha bir platformanın quraşdırılması nəzərdə tutulur. Qurğu keçən ilin sentyabr ayında AÇG üzrə imzalanmış yeni sazişin - "Yeni əsrin müqaviləsi"nin həyata keçirilməsinə xidmət edəcək.

Xəzərdə "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında, mərkəzi nöqtədə yerləşəcək yeni qurğu "Mərkəzi Şərqi Azəri" platforması adlanacaq. Xəzərin Azərbaycan sektorundakı digər platformalar kimi, bu qurğu da yerli infrastrukturdan və işçi qüvvəsindən istifadə edilməklə tikiləcək. Əsas inşaat meydançaları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun və Bibiheybətdəki ATA ("AMEK-Tekfen-Azfen") tikinti-quraşdırma sahəsinin ərazisində olacaq.

"Mərkəzi Şərqi Azəri"nin inşasına da əsasən yerli sakinlər cəlb ediləcək. Onların əksəriyyəti sözügedən istehsalat sahələrinin yaxınlığında yerləşən yaşayış məntəqələrinin sakinləri olacaq. Layihənin tikinti mərhələsinin ən qaynar çağında - bu dövrün 2021-ci ilin əvvəlinə təsadüf edəcəyi gözlənilir - yerli işçi qüvvəsinin sayının 3700 nəfərə çatacağı nəzərdə tutulur.

Xatırladaq ki, bundan əvvəlki layihələrdə də məhz həmin təcrübədən istifadə edilib. Məsələn, artıq istismarda olan "Şahdəniz-2" layihəsi ilə bağlı işlərdə 20 min nəfərə yaxın insan çalışıb.

### Neft layihələri və ekologiya

# Neftlə çirklənmiş ərazilər təmizlənərək bağlar, göllər məkanına çevriləcək

Dünyada həyata keçirilən neft-qaz əməliyyatları ətraf mühitə texnogen təsir edərək bir sıra ekoloji problemlər meydana gətirir. Neft-qaz sənayesi sürətlə inkişaf edən bir ölkə kimi Azərbaycan da bu problemlərdən kənarda qalmır. Odur ki, ölkəmizdə aparılan neft-qaz siyasətinin mühüm sahələrindən biri əməliyyatların ətraf mühitə və qlobal iqlim dəyişmələrinə təsirinin minimuma endirilməsi məsələsinin həllidir.

Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün görülən işlərdən, aparılan təhlillərdən danışılarkən neftlə çirklənmiş ərazilər mövzusuna da toxunulmuşdur. İlk növbədə neftlə çirklənmiş ərazilərin təmizləndiyi qeyd edilmişdir.

Bu istiqamətdə SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) xətti ilə aparılan işlər təqdirəlayiqdir. Belə ki, şirkətin ekoloji siyasətinin əsas prioritetlərini neft-qaz yataqlarının işlənməsi, karbohidrogenlərin hasilatı və emalı zamanı çirklənmiş torpaqların təmizlənməsi təşkil edir. Son bir il ərzində 53 hektardan çox ərazinin neft və neft məhsullarından təmizlənərək abadlaşdırılması buna əyani misaldır. Neft və neft məhsulları ilə çirklənmiş ərazilərdə ekoloji monitorinq tədqiqatlarının həyata keçirilməsi, monitorinqin nəticələrinə əsasən rekultivasiya texnologiyalarının seçilməsi və çirklənmiş ərazilərin reabilitasiyası yenə də gündəmdədir.

Ekologiyaya qayğı göstərilərək istilik effekti yaradan qaz mənbələrinin inventarlaşdırılması və məlumat bazasının yenilənməsi həyata keçirilir. Aşağı təzyiqli səmt qazlarının atmosferə atılmasının 2030-cu ilə qədər tamamilə dayandırılması üçün işlər davam edir. Özüllərdə dəniz suyunu duzsuzlaşdıran "ƏKS-OSMOS" qurğularının quraşdırılması işləri genişləndirilir. İstismar müddəti bitmiş neft-mədən avadanlıqları və hidrotexniki qurğular sökülərək istehsalatdan çıxarılır. Bunlar neft-qaz layihələrinin ekologiyaya mənfi təsirini minimuma endirmək üçün görülən tədbirlərin yalnız bir hissəsidir. Bu tədbirlərə lay sularının və səmt qazlarının idarə olunması, istilik effekti yaradan qazların azaldılması, yaşıllaşdırma tədbirlərinin genişləndirilməsi də daxildir.

Neft-qaz, neft-kimya sənayesində formalaşan tullantıların qeydiyyatı, çeşidlənməsi, toplanması, zərərsizləşdirilməsi, utilizasiyası kimi prosesləri birləşdirən, onların ekoloji tələblərə uyğun idarə edilməsinə təminat verən layihə - "Tullantıların İdarə Edilməsi Mərkəzi" layihəsi həyata keçirilmişdir. Bundan başqa bir sıra digər zəruri tədbirlər də görülmüşdür. Bunlar lay sularının yeraltı horizontlara vurulması yolu ilə utilizasiyası, özüllərdə formalaşan məişət çirkab sularının təmizlənməsi və digərləridir.

Atmosferə atılan səmt qazlarının azaldılması üzrə proqram da müvəffəqiyyətlə icra olunur. Son illər ərzində atmosferə atılan səmt qazlarının minimuma endirilməsi istiqamətində müəyyən nailiyyətlər əldə edilmişdir. Nəticədə SOCAR Dünya Bankının "2030-cu ilə qədər səmt qazlarının normal hasilat prosesində yandırılmasının sıfıra endirilməsi" qlobal təşəbbüsünə ilk qoşulan şirkətlər sırasına daxil olmuşdur. Şirkət bu istiqamətdə Dünya Bankının "Səmt Qazının Yandırılmasının Azaldılması üzrə Qlobal Tərəfdaşlıq" (GGFR) təşkilatı ilə əməkdaşlıq edir. Cari ilin may ayında Bakı bu qurumun toplantısına evsahibliyi etmişdir. Tədbirdə şamda yandırılan qazın azaldılması istiqamətində Azərbaycan təcrübəsinin öyrənilməsi, əldə olunan yüksək nailiyyətlərlə yaxından tanışlıq və təcrübənin xarici ölkələrdə tətbiqi məsələlərinin mümkünlüyü ilə bağlı maraqlı müzakirələr aparılmışdır.

Dənizdə və quruda yerləşən fəaliyyət sahələri üzrə mövcud ekoloji vəziyyətin tədqiqi, o cümlədən çirklənmə mənbələrinin müəyyənləşdirilməsi, ətraf mühitə təsirlərin araşdırılması, çirklənmənin növünün, dərəcəsinin və ariellarının təyin edilməsi üçün monitorinqlər həyata keçirilmişdir. Monitorinqlər həm də ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə təkliflər paketinin hazırlanması məqsədini daşıyır. Ekoloji Tədqiqatlar Ekspedisiyası indiyədək dənizdəki "Neft Daşları", "Palçıq Pilpiləsi", "Günəşli" yataqlarında monitorinqlər aparmışdır.

Qurudakı neft-qaz yataqlarında monitorinq tədqiqatları əsasən mədən ərazilərində neft və neft məhsulları ilə, eləcə də istehsal prosesində əmələ gələn digər tullantılarla çirklənmələrin öyrənilməsinə yönəldilir. Nəticədə çirklənmə mənbələrinin öyrənilməsi, istilik effekti yaradan qazların azaldılması, çirklənmiş ərazilər üçün rekultivasiya texnologiyalarının seçilməsi və s. üzrə təkliflər paketi hazırlanır. Sonra bu təkliflər üzrə görülən tədbirlər öz müsbət nəticələrini verir.

Nazirlər Kabinetinin iclasında Abşeron yarımadasında neftlə çirklənmiş yerlərin tam təmizlənəcəyinə inam ifadə olunmuşdur. Qeyd edilmişdir ki, bu istiqamətdə ardıcıl işlər aparılır. Onlar bu il də, gələn il də davam etdiriləcək. Odur ki, həmin yerlərin bağlar, yaşıllıqlar, göllər məkanına çevriləcəyi gün uzaqda deyil.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi 221100 "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə

*açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT-1.** Hesablama texnikası və avadanlıqlarına xidmətlərin göstərilməsi.

**LOT-2.** İnzibati binada profilaktik dezinfeksiya işlərinin aparılması.

Tender iştirakçılarına təklif edilir ki, təklifləri möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100 (bir yüz) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, AZ 1005. M.İbrahimov küçəsi, 8**
**Əlaqələndirici şəxs: Sadıxov İsmayıl. Tel.: 050-230-01-22**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kodu: 210005**
**SWIFT: CTREAZ22**
**M/h: AZ41NABZ01360100000003003944**
**Strateji Araşdırmalar Mərkəzi**
**VÖEN - 1301595701**
**İBAN: AZ75CTRE00000000000005478301**
**Büdcə Səviyyəsinin kodu: Fond 7**
**Büdcə Təsnifatının kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq xidmət üzrə lisenziyası;*
- *iddiaçının tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 14 dekabr 2018-ci il tarixdə saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 21 dekabr 2018-ci il tarixdə saat 17:00-dək tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaq.

İddiaçıların təklif zərfləri 24 dekabr 2018-ci il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Sumqayıt Regional Reklam İdarəsi

*Təkrar*

*açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.**

**LOT-1** 3 (üç) ədəd sedan tipli nəqliyyat vasitəsinin satın alınması.

**LOT-2** 10 (on) ədəd minivan tipli nəqliyyat vasitəsinin satın alınması.

Tender iştirakçıları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yuxarıda göstərilən LOT-lar üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat zərfdə yazılı surətdə təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının bu sahədə səriştəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Qasımov Telman Məhəmməd oğlu, tel: +99418 654-50-50.

Ünvan: Sumqayıt şəhəri, Bakı küçəsi, 60, Sülh Plaza, otaq N 604

Maraqlananlar Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu hər bir LOT üzrə 250 (iki yüz əlli) manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Sumqayıt Regional Reklam İdarəsi**

| | |
|---|---|
| **Bank:** | **Kapital Bank ASC Sumqayıt I filialı** |
| **VÖEN:** | **9900003611** |
| **H/h:** | **AZ24AIIB38060019440334338125** |
| **VÖEN:** | **2904721641** |
| **Kod:** | **200253** |
| **Müxbir hesab:** | **AZ37NABZ01350100000000001944** |
| **SWIFT:** | **AIIBAZ2X** |

**Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin ümumi qiymətinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *müqaviləni yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 noyabr 2018-ci il saat 17:00-dək**, tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərfdə **6 dekabr 2018-ci il saat 17:00-dək** Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər **7 dekabr 2018-ci il saat 11:00-da Sumqayıt Regional Reklam İdarəsində** (ünvan: Sumqayıt şəhəri, Bakı küçəsi, 60, Sülh Plaza, otaq N 604) açılacaqdır.

Təklif zərflərinin açılışında iddiaçıların səlahiyyətli nümayəndələri də iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

**"Azərişıq" ASC tərəfindən** smart-kart tipli 3 fazalı sayğacların, abonent kartlarının və kart oxuyucuların satın alınması məqsədilə keçirilmiş açıq tenderdə tender komissiyasının qərarına əsasən qalib elan olunmuş "Sensemi DMCC OF DUBAI" şirkəti ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

**"Azərişıq" ASC tərəfindən** müxtəlif gücdə gərginliyi yük altında avtomatik tənzimlənən transformatorların satın alınması məqsədilə keçirilmiş açıq tenderdə tender komissiyasının qərarına əsasən qalib elan olunmuş "Tikinti-Təmir-Təchizat-Bərpa" QSC şirkəti ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Türkiyə ordusu iki ildə 8500-dən çox terrorçunu zərərsizləşdirib



Türkiyədə İŞİD terrorçu təşkilatı ilə əlaqəyə görə 2 min nəfər həbs olunmuş, 7 min nəfər deportasiya edilmiş, təxminən 70 min nəfərə ölkəyə giriş qadağan olunmuşdur. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının parlamentdəki fraksiyasının iclasında məlumat vermişdir.

Dövlət başçısının dediyinə görə, 2016-cı ilin iyulundan bəri ordu İraqın şimalında 1092, Suriyanın şimalında "Fərat qalxanı" əməliyyatının keçirildiyi zonada 3 min, Suriyanın şimal-qərbində "Zeytun budağı" əməliyyatı zonasında 4,5 mindən çox terrorçunu zərərsizləşdirmişdir.

### Rusiyalı milyarder Monakoda həbs olundu



Monako prokurorluğunun sorğusuna əsasən rusiyalı milyarder Dmitri Rıbolovlev saxlanmışdır. Bu barədə Fransanın "Mond" qəzeti xəbər verir.

Hüquq mühafizə orqanlarının əməkdaşları milyarderin evində axtarış apardıqdan sonra onu həbs etmişlər. Rıbolovlev korrupsiyada və şəxsi məsələlərinin həllinə kömək məqsədilə vəzifəli şəxslərə təsir göstərməkdə şübhəli bilinir.

Xatırladaq ki, 2011-ci ildə Dmitri Rıbolovlev Fransa çempionatında iştirak edən "Monako" futbol klubunun nəzarət-səhm paketini əldə etmişdir. Bundan sonra o, kluba yüz milyonlarla avro sərmayə qoymuşdur.

### Aralıq dənizində 17 miqrant həlak oldu



Aralıq dənizində iki qayıqda Şimali Afrika sahillərindən İspaniyaya gedən 17 qeyri-leqal miqrant həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

İspaniyanın axtarış-xilasetmə xidmətindən verilən məlumata görə, bir tərəfdən İberiya yarımadası, digər tərəfdən Mərakeş və Əlcəzair arasındakı ərazidə iki qayıqda hərəkət edən qaçqınlardan 13-ü suda batmış, 80-i xilas edilmişdir. Ölkənin Kadis şəhərinin yaxınlığında isə miqrantların digər gəmisi batmışdır. Nəticədə 4 qaçqın ölmüş, 22-si xilas edilmişdir.

İspaniyanın "El Pais" qəzeti yazır ki, ölənlərin sayı arta bilər. Belə ki, 17 miqrant itkin düşmüşdür.

Qaçqınların İşləri üzrə Beynəlxalq Təşkilatdan bildirmişlər ki, yanvarın 1-dən oktyabrın 30-dək 47 min qeyri-leqal miqrant rezin qayıqlarda İspaniya sahillərinə gəlmişdir. Həmin müddətdə 600 qaçqın həlak olmuşdur.

### Quterriş Kamerunda oğurlanmış uşaqların azad olunmasını tələb edir



Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antoniu Quterriş noyabrın 5-də Kamerunun şimal-qərbində yerləşən Bamenda şəhərindəki orta məktəbin oğurlanmış şagirdlərini və əməkdaşlarını dərhal azad etməyə çağırmışdır. Bu barədə BMT Baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrikin təşkilatın saytında yerləşdirilmiş bəyanatında bildirilir.

Bəyanatda vurğulanır ki, mülki şəxslərə, xüsusilə həddi-buluğa çatmamış insanlara qarşı yönəlmiş cinayətlərə heç bir bəraət vermək olmaz. Quterriş həmçinin ölkənin cənub-qərb və şimal-qərb regionlarında inklüziv dialoq vasitəsilə dinc tənzimləmənin zəruriliyini qeyd etmişdir.

Məlum olduğu kimi, noyabrın 5-də Bamenda şəhərində oğurlanmış 80 nəfərin əksəriyyəti şagirddir. Cinayətin kimlər tərəfindən törədildiyi hələ ki bilinmir.

Kamerun Afrikanın ən sabit dövlətlərindən hesab olunur. Lakin son bir ildə orada vəziyyət gərginləşmişdir. Belə ki, ötən ilin oktyabr ayından bəri ölkənin ingilisdilli qərb hissəsinin müstəqilliyi uğrunda çıxış edən separatçılar vaxtaşırı hökumət ordusu ilə silahlı toqquşmalara girirlər.

### ABŞ Konqresinə seçkilərin nəticələri açıqlandı



ABŞ Konqresinə aralıq seçkilərin nəticələrinə görə, demokratlar Nümayəndələr Palatasında çoxluq qazanmışlar. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, seçkilərdə demokratlar Nümayəndələr Palatasında əksər yeri özlərinə qaytara bilmiş, respublikaçılar isə Senatda çoxluğu qoruyub saxlamışlar. ABŞ Prezidenti Donald Tramp Demokratlar Partiyasının Nümayəndələr Palatasındakı lideri Nensi Pelozini seçkilərdə uğurla bağlı təbrik etmişdir.

Seçkilər Nümayəndələr Palatasında bütün 435 yeri və Senatda 35 yeri əhatə etmişdir. Demokratlar ABŞ Konqresinin aşağı palatasında 220 yer qazanmış, respublikaçılar isə 194 mandat əldə etmişlər. Respublikaçıların nümayəndələri ancaq yuxarı palataya nəzarəti qorumuşlar. Onlar Senatda 52 yer, demokratlar isə 45 mandat qazanmışlar. Yuxarı palatada həm də bir müstəqil namizəd mandat əldə etmişdir.

Qeyd edək ki, Nümayəndələr Palatasına nəzarət etmək üçün partiyalardan birinin 435 yerdən azı 218-nə yiyələnməsi lazımdır.

Nümayəndələr Palatasında məğlubiyyətinə baxmayaraq, Tramp Konqresə aralıq seçkilərin nəticələrini böyük uğur kimi qiymətləndirmişdir. Prezident həmçinin seçicilərə səsvermədə iştirak etdiklərinə görə minnətdarlıq etmişdir.

ABŞ Konqresinin Nümayəndələr Palatasına ilk dəfə olaraq iki müsəlman qadın seçilmişdir. Onlardan biri Miçiqan ştatından olan Demokratlar Partiyasının nümayəndəsi, fələstinli Rəşidə Təlib, digəri Minnesota ştatının nümayəndəsi, demokrat, somalili İlhan Omandır.

### Çin sakini 12 ildən sonra komadan ayılıb

Çin sakini 12 ildən sonra komadan ayılıb, onun anası bütün bu illər ərzində oğlunun yastığı başında keşik çəkib.

AZƏRTAC xəbər verir ki, "Daily Mirror" qəzetinin yaydığı məlumata görə, Van Şubao 2006-cı ildə avtomobil qəzası nəticəsində iflic olub və koma vəziyyətinə düşüb. Həmin vaxt onun 36, anasının isə 63 yaşı vardı. Anası Vey Minyin oğlunu evə gətirib, ona qulluq edib, bütün pullarını müalicəyə xərcləyib və borca düşüb. Hətta yeməyə pul tapmadığı üçün bir ay yalnız su ilə qidalanıb.

Onun səyləri səmərəsiz qalmayıb. Bir müddət öncə Van Şubao gözlərini açıb və gülümsəyib. O hələ hərəkət edə və danışa bilməsə də, qadın ümidini itirmir.



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

*Sumqayıt Regional Mədəniyyət İdarəsi 2018-ci il 314400 Qeyri-maddi aktivlər xərc maddəsi üzrə*

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19.11.2018-ci il tarixinədək qəbul olunur. Maraqlanan təşkilatlar **018 655-49-87** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan: Sumqayıt şəhəri, 3-cü məhəllə, N.Nərimanov, 12.**

***Tender komissiyası***

### Bölgələrdə hava əsasən yağmursuz olacaq

Ölkə ərazisində noyabrın 8-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında gün ərzində arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində yağıntının intensiv olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-10°, gündüz 14-16° isti olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 8-9-da Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişli olsa da, rütubətli hava şəraiti bəzi insanlarda narahatlıq hissi yarada bilər.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Havanın temperaturunun gecə 0-5° isti, dağlıq ərazilərdə 4° şaxta, gündüz 10-15° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacağı ehtimalı var.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 5-9°, gündüz 12-17° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 2-7°, gündüz 10-15° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 2-5° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 5-10°, gündüz 14-18° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə intensiv olacağı bildirilir. Səhər dağlarda duman olacaq. Havanın temperaturunun gecə 8-10°, gündüz 14-17° isti, dağlarda gecə 1-4°, gündüz 6-9° isti olacağı proqnozlaşdırılır.

Respublikanın bölgələrində şərq küləyi əsəcək.

**07.11.2018-ci il tarixdə Sumqayıt Şəhər Mədəniyyət İdarəsinin dərc olunmuş elanının dəqiqləşdirilmiş variantı 08.11.2018-ci il tarixli nömrədə dərc olunur.**

**Seyfulla Fuadoviç Mustafayevə məxsus Bakı şəhəri, Yasamal rayonu, Mirəli Seyidov küçəsi, 10 (indiki 26), mənzil 31 ünvanına verilmiş Çıxarış itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin rektorluğu və kollektivi Maliyyə və mühasibat fakültəsinin dekanı Gəray Musayevə atası

**CÜMŞÜD MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi UNEC-in Maliyyə və mühasibat fakültəsinin dekanı Gəray Musayevə atası

**CÜMŞÜD MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Çingiz Əsədullayev Akif Nəbiyevə anası

**HƏCƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3297